Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

14
YANVAR
2020-ci il

№ 5 (4136)

Qiyməti
40 qəpik

www.baki-xeber.com

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# BAŞ PROKUROR PAŞİNYANIN BİR SAXTAKARLIĞINI DA AÇDI - PAŞİNYAN ƏN AZ ÖLÜM İLİ 2019-u, PROKUROR 2013-ü GÖSTƏRDİ...

■ səh. 5 ■

9 fevral seçkilərinin bu ana qədərki etapları barədə beynəlxalq tənqidi rəylərə rast gəlinmədi...

■ səh. 3 ■

Ermənistanın özünün törətdiyi Sumqayıt faciəsi üzərində hələ də oyun oynayanlara Paşinyan da qoşuldu...

■ səh. 4 ■

ABŞ-İran gərginliyi fonunda Paşinyana ciddi irad - "Bu budaqdan o birinə hoppanmaq siyasəti ilə davam edə bilmərik"

■ səh. 8 ■

Dünya Ermənistan separatizminin daha dərin üzünü görür - İrəvandan Krıma təyyarələr uçsa...

■ səh. 7 ■

İranda Süleymaninin öldürülməsi ilə bağlı hərəkata alternativ proseslər də başlayır - İngilis səfirinin işi və sonrakı hadisələr...

■ səh. 5 ■

Maliyyə Palatası ləğv olundu, valyuta kreditlərinə görə "Prezident kompensasiyalarının" ödənilməsi tam başa çatmadı, məsələ Mərkəzi Bankda ilişib...

■ səh. 11 ■

Bakı supermarketlərində erməni istehsallı şokolad?...

■ səh. 14 ■

Bərpa edilmiş tarixi abidələrdə mütəxəssisləri narazı salan məqamlar - iradlar nə qədər əsaslıdır...

■ səh. 15 ■




■ səh. 9 ■

## «Şimal axını» gecikdi - Rusiya qarşısında qazı Azərbaycan üzərindən satmaq zərurəti yetişir




Banklar maliyyə sistemini çökdürən kursdan əl çəkmir, Elman Rüstəmovun tövsiyələri yerə düşür...

■ səh. 10 ■



Radikal müxalifətin tez-tez şüar dəyişməsinin kökləri - Qarabağdan sosial tələblərə, oradan yenə Qarabağ məsələsinə...

■ səh. 4 ■

## Bir gündə 12 mənzil alan deputat da var imiş...

■ səh. 6 ■

■ səh. 2 ■

İki mindən artıq müşahidəçinin seçki şəffaflığını təmin edə biləcəyinə böyük inam var



■ səh. 3 ■

Bələdiyyə və parlament seçkilərində seçicilər arasında fərq? - Ekspertlər izah verir



■ səh. 11 ■

Azərbaycan nələrin hesabına ilin ən yaxşı ölkələrindən biri oldu...



■ səh. 12 ■

Xeyrəddin Qoca 70-ə gəlib çatdı...



■ səh. 14 ■

Restoranlar toy vergisindən yayınmağın üsulunu tapdılar - Toy sahibləri ilə icarə müqaviləsi...





# Prezident İlham Əliyev 2019-cu ilin yekun müşavirəsini keçirdi

**Yanvarın 13-də Prezident İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirə keçirilib.**

**Fevralın 9-da ölkəmizdə keçiriləcək növbədənkənar parlament seçkilərində iştirak edəcək müşahidəçilərin sayı məlum olub. Belə ki, parlament seçkiləri ilə əlaqədar müraciət edən yerli və xarici müşahidəçilərin sayı açıqlanıb. Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov mətbuata bildirib ki, Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar 2000-ə yaxın yerli və xarici müşahidəçi müraciət edib və onların, demək olar ki, əksəriyyəti müsbət cavab alıb.**

# İki mindən artıq müşahidəçinin seçki şəffaflığını təmin edə biləcəyinə böyük inam var



MSK sədrinin sözlərinə görə, həmin müşahidəçilərin 1630-u yerlidir: "Xarici müşahidəçilərin sayı isə 70-ə yaxındır. ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun, Müstəqil Dövlətlər Birliyi Parlament Assambleyasının müşahidə missiyası artıq fəaliyyətə başlayıb. İtaliya, Çexiya parlamentlərinin, Litva Seyminin müşahidəçiləri artıq akkreditasiyadan keçiblər. Moldova Mərkəzi Seçki Komissiyasının nümayəndələri də seçkiləri müşahidə edəcək. Xarici müşahidəçilərin qeydiyyatı prosesi hazırda sürətlə davam edir".

Azərbaycanda keçiriləcək növbədənkənar parlament seçkilərini izləyəcək 2000 yaxın müşahidəçinin sayı yetərlidirmi?

"Xalq cəbhəsi" qəzetinin baş redaktoru, politoloq Elçin Mirzəbəyli "Bakı-Xəbər"ə bildirdi ki, iki minə yaxın müşahidəçi seçki prosesini izləmək üçün yetərlidir: "Hesab edirəm ki, seçki prosesini izləyəcək müşahidəçilərin sayı yetərlidir. Yerli müşahidəçilərin də sayı çox olacaq. Faktiki olaraq deputatlığa namizədlərin də nümayəndələri seçki prosesini izləyəcəklər. Bu baxımdan da, zənnimcə, 2000-ə yaxın müşahidəçi seçkilərdə şəffaflığın təmin olunması üçün yetərlidir".

### *Elçin Mirzəbəyli: "Zənnimcə, 2000-ə yaxın müşahidəçi seçkilərdə şəffaflığın təmin olunması üçün yetərlidir"*

### *Bəhruz Quliyev: "Seçki prosesini izləmək üçün qeydiyyatdan keçən 2000 müşahidəçi az deyil"*

"Səs" qəzetinin və eyniadlı informasiya agentliyinin baş redaktoru, siyasi icmalçı Bəhruz Quliyev də hesab edir ki, bu rəqəm yetərlidir. Bununla belə, ekspertin fikrincə, müşahidəçilərin sayının artacağı ehtimal olunur. "Ümumiyyətlə, Azərbaycanda keçiriləcək növbədənkənar parlament seçkilərini izləmək üçün müraciət edən heç bir müşahidəçiyə maneə törədilmir, onlar maneəsiz qeydiyyatdan keçirlər, prosesi izləmək üçün vəsiqə alırlar. Məlum olduğu kimi, xarici müşahidəçilər də daxil olmaqla, 2000 müşahidəçi qeydiyyatdan keçib. Hesab edirəm ki, müşahidəçilərin sayı yenə də artacaq. Yəni müraciət edənlər yenə də olacaq. Digər tərəfdən, seçki prosesini izləmək üçün qeydiyyatdan keçən 2000 müşahidəçi az deyil, bu prosesi izləmək üçün kifayətdir. Seçkinin demokratik şəkildə keçirilməsi üçün ölkəmizdə kifayət qədər şəffaf mühit formalaşıb.

Həm qanunvericiliyin mükəmməlliyi, həm texniki təsisat məsələsindəki problemsizlik, müşahidəçilərin qeydiyyatı məsələsindəki şəffaflıq, namizədlərin aktivliyi, onların təbliğatı üçün heç bir maneənin olmaması seçkilərin şəffaf keçiriləcəyinə təminat verir. Həm yerli, həm də xarici müşahidəçilər seçkini izləyəcəklər. Azərbaycanda artıq parlament seçkilərinin tam şəffaf və demokratik şəraitdə keçirilməsi üçün mühit formalaşıb. Yəni artıq yaradılan mövcud mühit bu şəffaflığı ortaya qoyub" -deyə B.Quliyev vurğuladı.

*İradə SARIYEVA*

**Azərbaycanla Avropa İttifaqı (Aİ) arasında enerji sahəsində əməkdaşlıq "Cənub Qaz Dəhlizi" layihəsi çərçivəsindən kənara çıxır. Bunu "Trend"ə Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas deyib. Onun sözlərinə görə, tərəflər arasında irimiqyaslı olmayan və vacib əhəmiyyət daşıyan digər layihələr də mövcuddur.**

# Avropa Birliyi rəsmisindən Azərbaycanın qaz layihələrinə böyük dəstək...

### *Avropanın enerjiyə olan böyük tələbatı "Cənub Qaz Dəhlizi" vasitəsilə tədarükü artıracaq*



K.Yankauskas bildirib ki, "Cənub Qaz Dəhlizi" layihəsi Azərbaycanla Aİ-ni fiziki olaraq birləşdirəcək: "Bu həm Azərbaycana, həm də Aİ-yə qarşılıqlı səmərə gətirəcək əlamətdar layihədir. Azərbaycan üçün bu, avropalı müştərilərdən stabil gəlir, Avropa İttifaqı üçünsə yeni mənbədən yeni tədarük marşrutu deməkdir. Bu, həm də şaxələndirməyə və daha geniş seçim imkanına, beləliklə, daha böyük rəqabətə və istehlakçılar üçün daha uyğun qiymətlərə gətirib çıxaracaq".

O xatırladıb ki, 2019-cu ildə Türkiyə-Yunanıstan sərhədində Trans-Anadolu qaz kəməri (TANAP) ilə Trans-Adriatik qaz kəmərinin (TAP) birləşmə sahəsinin açılışı olub:

"Biz TAP-ın bu il tam başa çatacağını gözləyirik. 2020-ci il "Cənub Qaz Dəhlizi"nin sonu deyil, başlanğıcını ifadə edəcək. Yunanıstan-Bolqarıstan interkonnektoru (IGB) və qaz kəmərinin Qərbi Balkanlaradək uzadılması imkanı sayəsində bizim enerji əməkdaşlığımızın möhkəmləndirilməsi imkanları mövcuddur.

Avropanın enerjiyə olan böyük tələbatı "Cənub Qaz Dəhlizi" vasitəsilə tədarükü artıracaq. Bu da Azərbaycanın və bəlkə də Türkmənistanın Xəzər dənizindəki yataqlarından təmin olunacaq".

# 9 fevral seçkilərinin bu ana qədərki etapları barədə beynəlxalq tənqidi rəylərə rast gəlinmədi...

***Yeganə Hacıyeva:** "Seçkinin nəticələri ilə bağlı dəyərləndirmədə də biz əvvəlkilərdən müsbət mənada fərqlənən mövqelərin şahidi olacağıq"*

**Seçki prosesi seçki hərəkətlərinin məcmusu olub, seçkilərin elan olunmasından şikayətlərə baxılması və seçkilərin yekunlarının elan olunmasına qədərki bir dövrü əhatə edir. Bu mənada siyasi partiyalar daxilində namizədliklərin müəyyənləşdirilməsi, şəxsin öz istəyilə namizədliyini irəli sürməsi barədə daxili qərar qəbul etməsi və s. seçki prosesindən öncə başlanır və bu, rəsmən seçki prosesi ilə əhatə olunmur.**

Seçki prosesinin digər özünəməxsusluğu ondadır ki, bu dövrdə seçki prosesinin subyektlərinin bütün fəaliyyəti və hərəkətləri qanunla ciddi tənzimlənir. Bəzən isə bu tənzimləmənin ən xırda təfərrüatlarına qədər inkişaf etdiyini görürük. Buna xüsusilə səsvermə günü hərəkətlərini və səslərin hesablanması prosedurunu misal göstərmək olar. Bu da seçkinin ölkə, xalq həyatında rolundan qaynaqlanır. Dövlət öz seçki qanunu ilə azad və ədalətli seçkilərin keçirilməsi üçün siyasi iradə ortaya qoyur və bu, qanunla müəyyən edilən qaydaların və şərtlərin pozulduğu təqdirdə seçkilərin obyektivliyini istisna edir. Ədəbiyyatlarda seçki prosesi müxtəlif mərhələlərə bölünür. Məlum olduğu kimi, ölkəmizdə növbədənkənar parlament seçkilərinin keçirilməsinə start verilib. Artıq seçkinin bir neçə mərhələsi arxada qalıb. Namizədlərin imza vərəqlərini götürməsi, sonra imza toplaması və həmin sənədlərin yoxlanılaraq deputatlığa namizədlərin rəsmən qeydə alınması proseduru başa çatıb. Bir neçə gündən sonra təbliğat və təşviqat prosesinə başlanacaq. İndiyə qədər olan seçki prosesinin mərhələləri ilə bağlı beynəlxalq təşkilatların, yerli QHT-lərin etiraz bildirdiyinə rast gəlinməyib. Bu onu deməyə əsas verirmi ki, seçkinin bundan sonrakı mərhələləri də istənilən səviyyədə keçəcək və beynəlxalq tənqidlərə tuş gəlməyəcək?

Seçki prosesləri ilə bağlı beynəlxalq təcrübəni dərindən öyrənən ekspert Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, tənqidlərin olmaması real mənzərəyə verilən obyektiv qiymət sayıla bilər: "Bir qədər Avropa Parlamenti ilə bağlı manipulyasiya etməyə çalışdılar. Sonra məlum oldu ki, burada texniki səbəb var. Azərbaycan rəsmən bəyan etdi ki, Avropa Parlamentinə müşahidə aparmaq üçün dəvət göndərməyib. Bundan əlavə isə biz prosesi tənqid edən rəylərə rast gəlməmişik. Müşahidələr də göstərir ki, prosesdə iştirak etmək istəyənlərin çoxu qeydə alınıb. Adi sosial şəbəkələrdə də görürük ki, hətta vətəndaşlar qeydə alınanların çoxluğundan gileylənir ki, həddən artıq qeydə alınmış şəxs vəsiqə və başqa sənədlərini paylaşır. Biz heç sosial şəbəkələrdə qeydiyyata alınmaqla bağlı prosesdən şikayətlərin kütləviliyinə də rast gəlmirik. Bütün bunlar göstərir ki, DSK və MSK-da bununla bağlı şəffaflıq təmin edilib. Qeyd edim ki, əsasən tənqidi notlar istər daxildən, istərsə də xaricdən ən son mərhələ ilə bağlı səslənir. Söhbət nəticələrin elan olunmasından gedir. Adətən seçkinin nəticələri ilə bağlı biz xaricdən heç də obyektiv tənqidə söykənməyən mövqelərə rast gəlirik. Bundan əvvəlki seçkilərdə belə halları müşahidə etmişik. Güman etmirəm ki, bu seçkilərdə həmin istiqamətlərdən tənqidlər olmayacaq. Ancaq sayında azlıq müşahidə ediləcək.



Daxili analizlər də göstərir ki, hakimiyyət budəfəki seçkilərə daha ciddi nəzarət edir və prosesin tam demokratik şəraitdə olmasında maraqlıdır. Bu baxımdan da növbəti mərhələlərin də uğurla və şəffaf şəkildə başa çatacağını söyləmək olar. Bütün bunlara rəğmən, demək olar ki, Azərbaycan hakimiyyəti çox şəffaf seçkilərin keçirilməsində maraqlıdır. Buna mane olan bütün amilləri aradan götürür. Güman edirəm ki, seçkinin nəticələri ilə bağlı dəyərləndirmədə də biz əvvəlkilərdən müsbət mənada fərqlənən mövqelərin şahidi olacağıq".

***Məhəmmədəli QƏRİBLİ***

# Bələdiyyə və parlament seçkilərində seçicilər arasında fərq? - Ekspertlər izah verir

***Məhərrəm Zülfüqarlı:** "Bu onunla əlaqədardır ki, bir sıra rayonlar işğal altında olduğu üçün, həmin rayonlarda bələdiyyə seçkiləri keçirilmir"*

**2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə müqayisədə qarşıdan gələn növbədənkənar parlament seçkilərində seçici sayında kəskin fərq olacaq. Məsələ ondadır ki, Mərkəzi Seçki Komissiyasının (MSK) məlumatlarında dekabrın 23-də keçirilən bələdiyyə seçkilərində seçici sayı 4 972 356 göstərilib.**



Ancaq qurumun hazırda saytında seçici sayı bundan artıq göstərilib. Belə ki, MSK-nın saytında seçicilərin sayı 5 milyon 212 nəfərdən çox göstərilir. Üstəlik, Dövlət Statistika Komitəsinin hesablamasına görə, ölkədə yaşı 18-dən yuxarı olan şəxslərin sayı 7 milyon nəfərə yaxındır. Belə olan halda, sual ortaya çıxır ki, arada niyə bu qədər fərq var. Seçici siyahıları nə dərcədə real mənzərəni əks etdirir? Onu da nəzərə almaq lazımdır ki, bələdiyyə seçkiləri ötən ilin sonlarında keçirilib. Arada elə böyük vaxt da keçməyib ki, deyəsən seçicilərin sayı artıb. O zaman maraqlıdır, seçici sayında müşahidə edilən fərq nə ilə bağlıdır?

Məsələyə münasibət bildirən Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) Seçki Qərargahının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, seçicilərin sayındakı fərq bir sıra amillərlə bağlıdır: "Məsələ ondadır ki, bələdiyyə seçkiləri ərəfəsində 18 yaşı tamam olanlarla, indiki vaxtda bu yaşa çatanları nəzərə almaq lazımdır. Azərbaycanda əhali artdığına görə seçici hüququ olanların sayı dəyişir. Məlum olduğu kimi, yaşı 18-ə çatan vətəndaşlar səsvermə hüququna malikdirlər. Bu o deməkdir ki, seçki hüququ olan insanların sayı artır. Digər tərəfdən, hər seçki kampaniyası zamanı seçici siyahıları dəqiqləşdirilir. Siyahı təzələnən zaman kimlərsə qeydə alınmayıbsa, onlar qeydə alınır. O səbəbdən siyahı təzələndikcə, say fərqi özünü göstərir. Başqa bir tərəfdən onu da nəzərə almaq lazımdır ki, kimlərsə qeydiyyatdan çıxır, kimlərsə qeydiyyata düşür. Bu amil də saylara öz təsirini göstərir. Yəni bu proses bütün respublika üzrə getdiyindən, öz nəticəsini bütün ölkə üzrə seçici siyahılarında göstərir. Ən başlıcası, bu onunla əlaqədardır ki, bir sıra rayonlar işğal altında olduğu üçün, həmin rayonlarda bələdiyyə seçkiləri keçirilmir. Deməyim odur ki, bu fərqin əmələ gəlməsi 7 dairədə bələdiyyə seçkilərinin keçirilməməsi ilə bağlıdır. Sonuncu bələdiyyə seçkilərində 125 dairədən 118-də seçki keçirildi. Məcburi köçkün rayonlarında bələdiyyə seçkiləri keçirilmir. Sözügedən rayonların vətəndaşlarının bələdiyyə seçkilərində iştirak etməməsi seçicilərin sayına daha çox təsir edir".

*"Siyahı təzələndikcə, say fərqi özünü göstərir"*

***Vidadi ORDAHALLI***

# Radikal müxalifətin tez-tez şüar dəyişməsinin kökləri - Qarabağdan sosial tələblərə, oradan yenə Qarabağ məsələsinə...

**Bütün analizlər göstərir ki, radikal müxalifət öz hakimiyyət iddiasını reallaşdırmaq üçün istənilən yola baş vurmağa, hətta iğtişaşlar törətməyə belə hazırdır. Xaricdən alınan maliyyə yardımları ilə təşkil olunan mitinqlər də bunun real sübutudur.**

***Samir Adıgözəlli:*** *"Radikalların şüarlarla manevr etməsi onların ideoloji boşluğu və çarəsizliyindən xəbər verir"*

Müxalifətin demokratiya anlayışının daha bir qabarıq ifadə tərzi bu düşərgə daxilində cərəyan edən son proseslərdə də özünü göstərir. Məsələn, fəaliyyəti bir müxalifət partiyası olaraq fiaskoya uğrayan, cüzi elektoratını da itirən AXCP və digər radikallar real addımları ilə deyilənləri sübut edirlər. Radikallar konkret konsepsiyasız, mövsümi şüarlarla silahlanıb gün keçirməklə məşğuldurlar. Nizamlı fəaliyyəti olmayan düşərgə əsasən şüarları ilə də çox manipulyasiya edir. Məsələn, bir müddət həssas olan "Qarabağ" şüarı ilə irəliləyən radikallar, sonra onu unudub sosial problemlərdən danışmağa başladılar. İndi yenə "Qarabağ" şüarı yadlarına düşüb. Ölkədəki seçki aktivliyini görən radikallar yenidən "Qarabağ" şüarı ilə səs-küy salmağa başlayıblar. Təbii ki, Qarabağla bağlı süarları heç kim özününküləşdirə bilməz. Müxalifətin də Qarabağın azadlığını tələb etmək kimi haqqı var. Ancaq bu mübarizə səmimiyyət üzərində qurulmalıdır və ardıcıl olmalıdır. Yoxsa, hər mövsümə uyğun bir şüar fikirləşib, gündəmdə qalmaqla siyasət aparmaq olmaz. Müxalifətin tez-tez şüar dəyişməsi nəyin əlaməti sayıla bilər?

İctiami-Siyasi Proseslər və Beynəlxalq Araşdırmalar Mərkəzinin (İSBAM) rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, tez-tez şüar dəyişmək partiyaların strukturlarının olmaması ilə bağlıdır: "Radikal müxalifət partiyalarında, demək olar ki, heç bir yenilənmə getmir. Yenilənmə yalnız onunla bağlıdır ki, partiyanı tərk edənlər çox olur. Yeni nəsil isə müxalif partiyalara üzv olmaqda maraqlı deyil. Çünki onları həmin təsisatlarda heç bir yenilik və karyera gözləmir. Köhnə düşüncəli partiya funksionerləri isə, demək olar ki, həyatdan bezmiş vəziyyətdədirlər. Onlarda konsepsiya, proqram




yazmağa hansı həvəs ola bilər? Bu səbəbdən də partiyalar xaricdən aldıqları sifarişlərə uyğun şəkildə proqramlarını və ən əsas da şüarlarını tənzimləyirlər. "Qarabağ" şüarı ilə pafoslu danışmaq bunların əlində bir vasitəyə çevrilib. İnsafən, demək lazımdır ki, hakimiyyət Qarabağ problemi ilə bağlı çox prinsipial mövqe ortaya qoyur. Azərbaycanın maraqları tələb olunan mövqedən bir addım da geriyə atmır. İndi gəlin "Qarabağ" qışqıran radikal partiyaların birindən itirilmiş torpaqların necə geri qaytarılması ilə bağlı bir konsepsiya tələb edək. Yalnız ümumi, pafoslu sözlərlə danışmaqla kifayətlənəcəklər. Radikalların şüarlarla manevr etməsi onların ideoloji boşluğu və çarəsizliyindən xəbər verir".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistanın özünün törətdiyi Sumqayıt faciəsi üzərində hələ də oyun oynayanlara Paşinyan da qoşuldu...

**Ermənilər anti-Azərbaycan kampaniyasına başlamaq və Azərbaycana qarşı təcavüzkarlıq siyasətinə bəraət qazandırmaq üçün 1988-ci ildə Sumqayıt hadisələrini özləri törətdilər. 1988-ci il fevralın 26-28-də Sumqayıtda baş verən hadisələrin istintaq materiallarında bütün bunlar tutarlı faktlarla sübut olunub.**

*"Yaxşı olardı ki, Paşinyan sözügedən hadisələrdən danışarkən həmin istintaq materiallarına baxsın"*

***Əli Orucov:*** *"Sumqayıt hadisələrinin ermənilər tərəfindən törədilməsini təkcə biz demirik"*

Ancaq buna baxmayaraq, ermənilər uzun illərdir Sumqayıt hadisələri ətrafında oyun oynayırlar. Hər il guya azərbaycanlıların orada "soyqırım" törətdiklərini iddia edir və qondarma mərasimlər təşkil edirlər.

Ermənistanın Baş naziri Nikol Paşinyanın son cəfəngiyyatı məhz Sumqayıt hadisələri üzərində qurulub. Görünən odur ki, Paşinyan da onların oyunlarına qoşulub. Adam həyasızcasına iddia edib ki, Dağlıq Qarabağ münaqişəsi guya Sumqayıt hadisələrinə görə başlayıb. Əslində, Sumqayıt hadisələrinin bütünlüklə erməni təxribatından başqa bir şey olmadığını Paşinyan çox gözəl bilir. Buna baxmayaraq, Paşinyan Bakıda "erməni qırğınlarının" 30 illiyi münasibətilə ictimaiyyətə mesaj da göndərib. Daha sonra yalanlarına davam edərək bunları deyib: "30 il əvvəl beynəlxalq ictimaiyyət Bakıda erməni əhalisinin qətliamının şahidi olub bunu qınamışdır. Sumqayıt faciəsindən sonra artan repressiyalar və etnik təmizləmələr siyasəti nəticəsində 1990-cı ildə Bakıdakı 250 minlik erməni icmasından yalnız 35-40 min yaşlı və köməksiz insanlar qalmışdı. Onların sonrakı taleyi daha faciəli olub".

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, Sumqayıt hadisələrinin ermənilər tərəfindən törədilməsini təkcə biz demirik: "O zaman bununla bağlı istintaq işlərini SSRİ-nin müvafiq hüquq-mühafizə orqanları aparırdı. Yəni bu məsələ ilə o zaman sırf Moskva tərəfindən göndərilən istintaq qrupu məşğul olurdu. Həmin istintaq materiallarında bütün bunlar açıq şəkildə göstərilib. Yaxşı olardı ki, Paşinyan Sumqayıt hadisələrindən danışarkən həmin istintaq materiallarına baxsın. İstintaqı Azərbaycan hüquq-mühafizə orqanları aparsaydı, o saat deyərdilər ki, bu qərəzlidir. Həmin istintaqı ruslar aparıb. Başqa bir tərəfdən, Paşinyan özü



yaxşı bilir ki, Sumqayıt hadisələrinin törədilməsində ermənilərlə yanaşı, SSRİ DTK-sı da fəal iştirak edib. Məhz bu səbəbdən cinayəti törədən ermənilər sonralar müxtəlif vasitələrlə məsuliyyətdən kənarda qaldılar. Hansı ki, o qatillər buna görə sərt cəzalandırılmalı idi. Ancaq məlum səbəblərdən bu baş vermədi. Paşinyan Bakıda törədilən hansı "qırğınlar"dan danışır ki, 1989-cu ilin sonuna qədər Ermənistanda bir nəfər də olsun azərbaycanlı qalmadı. Bütün soydaşlarımız dədə-baba torpaqlarından zorla qovuldu. Mən özüm əslən Qərbi Azərbaycandanam. Azərbaycanlıların yaşadığı Quqark rayonunda qırğınlar törədildi, insanlar diri-diri yandırıldı. Ona görə də Paşinyanın növbəti yalanları nəyisə dəyişə bilməyəcək".

***Vidadi ORDAHALLI***

# Baş prokuror Paşinyanın bir saxtakarlığını da açdı - Paşinyan ən az ölüm ili 2019-u, prokuror 2013-ü göstərdi...

**Bu günlərdə Ermənistan Baş naziri Nikol Paşinyan 2019-cu ilin yekunlarından danışarkən orduda itkilərin müstəqillik dövrünün son 20 ili üçün tarixi minimuma düşdüyünü elan edib. Bununla bağlı sosial şəbəkədəki hesabında Paşinyan itkilərin konkret sayını açıqlamasa da, əsgər ölümlərinin 2018-ci illə müqayisədə 22 faiz azaldığını bildirib.**

## *İbrahim Rüstəmli: "Orduda ikitirəlik bu gün də davam edir və belə halların sayı azalmayıb"*



Ancaq Paşinyanın "Facebook"da Ermənistan ordusunun itkisinin tarixi minimumu haqqında yazdıqları yalan çıxıb. Belə ki, Ermənistan Hərbi Prokurorluğunun hesabatlarını araşdıran zaman məlum olub ki, itkilər heç də ən aşağı həddə düşməyib. Sadəcə, Paşinyan ictimai dəstək qazanmaq üçün növbəti dəfə yalan danışmalı olub. Məsələ ondadır ki, hərbi prokurorun köməkçisi Qor Abramyanın verdiyi məlumata görə, 2019-cu ildə ordu sıralarında 49 hərbi qulluqçu ölüb. Analoji itkilər 2013-cü ildə rəsmi olaraq 32 nəfər təşkil edib. 2006-cı ildə isə verilən itkilərin sayı 33 nəfər olub. Beləliklə, Paşinyanın 2019-cu ildə son 20 ilin ən az verilən itkiləri barədə açıqlamasının yalan olduğu ortaya şıxıb.

Onu da qeyd edək ki, ümumilikdə, 2011-2019-cu illərdə Ermənistan ordusu 588 hərbi qulluqçusunu itirib.

Beləliklə, Paşinyanın rəqəmlər üzərində oynamaq cəhdi növbəti dəfə onun əleyhinə işlədi və yalan danışdığı məlum oldu. Bəzi erməni ekspertlərinin fikrincə, Ermənistan ordusunda göstərilən itkilərin sayı, əslində, reallıqda daha çoxdur.

Məsələyə münasibət bildirən ehtiyatda olan polkovnik-leytenant, hərbi ekspert İbrahim Rüstəmlinin sözlərinə görə, Ermənistan ordusunda real vəziyyət daha da ağırdır: "Əvvəla Ermənistana rəhbərlik edənlərin hamısı, bir qayda olaraq, Qarabağ kartı üzərində öz hakimiyyətini qurub. Yəni Qarabağ kartı onlar üçün aparıcı və müəyyənedici vasitə kimi həmişə vacib rol oynayıb. Paşinyan da, əvvəlkilər kimi, Qarabağ kartından istifadə edir. Bununla o, hakimiyyətdəki ömrünü daha çox uzatmaq istəyir. Hər dəfə rəqəmlərdən istifadə etməyə çalışarkən gülünc duruma düşür. Anlamaq istəmir ki, indi başqa zamandır. Ordu hansısa iqtisadi subyekt deyil ki, rəqəmləri şişirdəsən və yaxud da aşağı göstərəsən. Ordu mürəkkəb bir sistemdir. Ermənistan ordusunun daxili vəziyyəti heç də Paşinyanın iddia etdiyi kimi deyil. Düzdür, Paşinyan Baş nazir olandan atəşkəsin pozulması halları azalıb, amma bu o demək deyil ki, orduda neqativ hallar azalıb. Orduda neqativ hallar azalmayıb, əksinə, artıb. Ermənistan ordusu daxilində ciddi narazılıqlar var və bu, zaman-zaman özünü müxtəlif formalarda göstərir. Orduda ikitirəlik bu gün də davam edir və belə halların sayı azalmayıb. Məlum statistik rəqəmlər bunu bir daha sübut etdi. Xüsusən də Ermənistandan olan əsgərlərlə Qarabağdan olan əsgərlər arasında ziddiyyətlər var. Neçə dəfə əsgərlər arasında insidentlər baş verib. Bunun da konkret kökləri var. Məsələ ondadır ki, dinc erməni əhalisinin böyük bir qismi Qarabağla bağlı fərqli mövqedən çıxış edir. Onlar istəmir uşaqları Qarabağda xidmət etsinlər. Dəfələrlə əsgər anaları etiraz aksiyası keçiriblər. Qarabağ problemi erməni əhalisi üçün artıq bir yükdür. Çünki münaqişə həll olunmadığı üçün, hər il erməni əsgərləri Qarabağda ölür, şikəst olur, "dedovşinaya" məruz qalırlar və s. Ordu çətin mexanizmə malik bir qurumdur. Ordunu idarə etmək üçün çox ciddi dayaq sütunları lazımdır. Ermənistan ordusunun bizdən fərqi həm də odur ki, dayaq sisteminə malik deyil. Ona görə də Paşinyanın ordu üzərindən qurmaq istədiyi təbliğat cəhdi fiaskoya uğradı".

*"Paşinyan hər dəfə rəqəmlərdən istifadə etməyə çalışarkən gülünc duruma düşür"*

***Vidadi ORDAHALLI***

# İranda Süleymaninin öldürülməsi ilə bağlı hərəkata alternativ proseslər də başlayır - İngilis səfirinin işi və sonrakı hadisələr...

**Ukrayna təyyarəsini vurmasını etiraf etməsi İranda vəziyyətin məcrasından çıxmasına səbəb olub. İranın əsasən 4 şəhərində - Tehran, İsfahan, Qum və Şirazda etiraz aksiyaları start götürüb.**



Aksiya iştirakçılarının bir neçə ay öncə keçirilən benzin üsyanlarından daha qələbəlik və həyəcanlı olduğu bildirilir. Bəzi aksiyaçıların hətta vəcdə gələrək, qeyri-adi səslərlə bir çox rəsmi təbliğat vasitəsini cırdıqları müşahidə olunur.

Diqqəti cəlb edən əsas məqam isə İran xalqının bir neçə gün öncə yüzminlərin iştirakı ilə son mənzilə yola saldığı Qasim Süleymaninin posterlərini cırmalarıdır. Hansı ki, İranın Xarici İşlər naziri Cavad Zərif Süleymaninin dəfn mərasimindən çəkilən şəkilləri "Twitter" səhifəsində paylaşaraq, ABŞ Prezidentinə əzələ nümayiş etdirmiş, "Ey Tramp, sən heç bu qədər insan seli görmüşdünmü?" mesajı vermişdi. İndi həmin "insan seli" İranın əfsanəvi generalının qəniminə çevrilib.

Polislər aksiyanı dağıtmağa çalışsalar da, "benzin üsyanı"nda olduğu qədər aqressiv deyillər. Etirazçılara qarşı SEPAH üzvlərinin daha sərt davrandığı müşahidə olunur, amma təyyarə faciəsindən sonra onların da əvvəlki etibarı qalmayıb. İran rəsmiləri ölkəni dünya qarşısında rəzil duruma salan "İnqilab keşikçilərini" açıq şəkildə qınayırlar. Hətta Prezident Ruhani günahkarların cəzalandırılacağını bəyan edib.

Etirazçıların şüarları da maraqlıdır. Onlar bir ağızdan "bizim düşmənlərimiz Amerikada deyil, İrandadır", "İstefa" kimi şüarlar səsləndirirlər.

ABŞ İran xalqının etirazlarını açıq şəkildə dəstəkləyir. Prezident Donald Tramp öz məşhur "Twitter" səhifəsində İran xalqına dəstək mesajı paylaşıb. "Sizin şücaətiniz mənə ilham verir" yazan Tramp aksiyaları yaxından izlədiyini də gizlətməyib.

Qeyd edək ki, Böyük Britaniyanın İrandakı səfiri Roberta Makkera da aksiyada iştirak edib. Diplomat ictimai qaydaları pozduğuna görə saxlanıb. Polis şöbəsinə aparılan səfirə xəbərdarlıq edildikdən sonra sərbəst buraxılıb. Məlum hadisədən sonra Britaniya səfiri İranın Xarici İşlər Nazirliyinə çağırılıb və rəsmi Tehranın etirazı onun diqqətinə çatdırılıb. Baş verən bu proseslər gələcək üçün nələri vəd edə bilər?

Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, tərəflər müharibədən çox sülhə meyllidirlər: "İran cəmiyyəti isə müharibəni, ümumiyyətlə, istəmir. Çünki uzun illərin sanksiyası, qapalı və təcrid həyat tərzi onları daha çox yorub. İranın daxilində baş qaldıran aksiyalar bunu bir daha sübut edir. Qasım Süleymani hadisəsindən əvvəl də İranda yanacağın qiymətinin qaldırılması ilə bağlı kütləvi aksiyalar oldu. Oradan xalqın narazılığı aydın görünürdü. İndi də təyyarə hadisəsinə görə daha kütləvi aksiyalar keçirilir. İranla ABŞ arasındakı gərginliyi səngitmək üçün Avropa Birliyinin vasitəçiliyi ilə təşəbbüslərə başlanıb. Məqsəd ehtimal edilən müharibənin qarşısını almaq və tərəfləri danışıq masası ətrafına yenidən gətirməkdir. Hətta Türkiyə də bu prosesə qoşulub. Hər halda, Avropa Birliyinin bu səyləri, məqsədi Yaxın Şərqdə müharibənin qarşısını almaqdır. İran da bu məsələdə, məncə, tolerant davranır. İran nə qədər hərb desə də, onun müharibə apara biləcək gücü yoxdur. Çünki daxildə iqtisadi münasibətlər, sanksiyalar səbəbindən həddindən artıq dərəcədə gərginlik var. Tramp da güzəştə gedəcək. Çünki irimiqyaslı müharibə istəmir. Həm də bu müharibə Amerikanın imicinə xələl gətirə biləcək hadisələr ola bilər. Amerikanın İrana vuracağı zərbə dəhşətli olacaq, bu da dünya ictimaiyyətində mənfi rəy yaradacaq. Bu səbəblərdən qarşıdurmanın səngiməsi, qarşılıqlı dialoqa doğru meyllərin artması müşahidə edilməkdədir. Məncə, bu meyllər vəziyyəti xeyli aydınlaşdıra bilər. İranın daxilindəki bu proseslər isə iki mühüm xəttin qarşıdurmasını göstərir. İslahatçılarla mühafizəkarlar arasındakı fikir ayrılığı özünü keçirilən aksiyaların mahiyyətində də göstərir. Düşünmürəm ki, bu, İranın daxilindəki proseslərin nəzarətdən çıxması ilə nəticələnsin. Qısa müddətdə proseslər öz yoluna düşəcək".

***Məhəmmədəli QƏRİBLİ***

# Bir gündə 12 mənzil alan deputat da var imiş...

## Rauf Zeyni: "Ümid edirəm ki, yeni formalaşacaq parlamentdə biz bu kimi insanlara rast gəlməyəcəyik"

**Bakının Nəsimi rayonu, Dilarə Əliyeva küçəsi, 717-ci məhəllənin sakinləri sabiq deputat, general Əliağa Hüseynovun onlara məxsus 12 mənzilə göz dikdiyini iddia edirlər. Sosial şəbəkələrdə ictimailəşən bu mövzu ilə bağlı bildirilir ki, söhbət sözügedən ünvanda "İdeal -V" MMC tərəfindən inşa edilən çoxmərtəbəli binadan gedir.**

Hələ bina inşa edilən zaman şirkətin təsisçisi İsa Məmmədov və direktoru Çingiz Məmmədov eyni mənzili bir neçə nəfərə satıblar.

İyirmiyə yaxın mənzil sahibinin Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə şikayətlərindən sonra onların hər ikisi həbs olunub. İsa və Çingiz Məmmədovların eyni mənzilləri ayrı-ayrı şəxslərə sataraq 3 milyon 206 min manat məbləği ələ keçirmələri müəyyən edilib. Törətdikləri cinayət əməlinə görə İ.Məmmədov 11 il, Ç.Məmmədov isə 10 il müddətinə azadlıqdan məhrum ediliblər. Şirkətin təsisçisi və direktoru həbs olunduqdan sonra bina sakinləri tərəfindən "Nəsimi 19" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti yaradılıb. Sakinlər özləri şəxsi vəsaitləri hesabına binaya su, qaz, elektrik xətti çəkiblər, yarımçıq binanın təmirini başa çatdırıblar.

Sakinlər bildirirlər ki, təzəcə hər şey qaydasına düşübmüş, amma bu dəfə də iki yeni sakin "ortaya çıxıb" və həmin binadan birdən-birə 12 mənzilə sahib olduqlarını iddia edib. Yeni sakinlər mülkiyyət hüquqlarının tanınması ilə bağlı Nəsimi Rayon Məhkəməsinə müraciət ediblər.

Sakinlərin dediyinə görə, onların mənzillərinə iddialı olanlar keçmiş baş hərbi komissar, ehtiyatda olan general-leytenant, Milli Məclisin 4-cü və 5-ci çağırış deputatı Əliağa Hüseynovun həyat yoldaşı Elmira Hüseynova və qızı Esmira Əliyevadır. E.Hüseynova və E.Əliyeva bu binada üç ayrı mərtəbədə yerləşən 12 mənzilin sahibi kimi binanın texniki-tikinti ekspertizası bəhanəsi ilə Nəsimi Rayon Məhkəməsində mülki iddia qaldırıblar. Halbuki, Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmünə əsasən, həmin mənzillərdə məhkəmənin hökmü ilə təsdiq olunmuş sakinlər yaşayır.

Ötən il sentyabrın 17-də Nəsimi Rayon Məhkəməsində hakim Ramin Xəlilovun sədrliyi ilə hər iki şəxsin mülkiyyət hüququnun tanınması ilə bağlı iddiaya baxılıb. Məhkəmə iddianı rədd edib və 12 nəfər sakinin xeyrinə qətnamə qəbul olunub: "12 nəfərin evinə göz dikən millət vəkili, general Əliağa Hüseynov haqqında mətbuatda narazılıqlarımızı bildirmişdik. General bu məsələ ilə bağlı açıqlama verib dedi ki, mənzilləri "halal pulla" alıblar və hər şey məhkəmədə həll olunacaq. Necə olur ki, Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi istintaq işi açır, bu istintaq işində bütün saxta sənədlər yoxlanılır, "İdeal -V" və "Alyans-Z" arasında üzləşmələr olur. Amma binanın həqiqi sakinləri və zərərçəkənlər istintaq, ekspertiza və məhkəmə əsasında aşkar olunduğu halda, 12 ildən sonra bu deputat hardansa saxta sənədlərlə üzə çıxır və sadə xalqı yaşadığı evdən köçürmək istəyir? Yəni bu generalın Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin apardığı istintaq işinin nəticələrinə şübhəsi var? Niyə Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin apardığı istintaq zamanı onun müqavilələri həqiqi çıxmayıb, əgər bu müqavilələr düzgündürsə, niyə ona istintaq və məhkəmə tərəfindən həqiqi sakin kimi təsdiqləyici sənəd verilməyib? Niyə ikili mənzilinin həlli üçün yenidən istintaq işinin aparılmasını tələb etmir, binanın texniki-tikinti ekspertizası bəhanəsi ilə Nəsimi Rayon Məhkəməsinə mülki məsələ ilə bağlı müraciət edir? Guya binanın suyu, işığı barəsində məlumatlar əldə edir?" - sakinlər sual ediblər.



Bina sakinləri deyiblər ki, istintaq və məhkəmə araşdırmaları zamanı zərərçəkən və həqiqi sakinlər müəyyən edilib. Bu qadınlar onlara məxsus müqavilə ilə üzə çıxmayıb, sakinlərin heç biri onları tanımayıb: "Bu 12 ildə harada olublar? İndi iddia edirlər ki, guya 2007-ci ildən bu binadan mənzil alıblar. Görəsən deputat bu 12 ildə 12 mənzilini niyə "unudubmuş?" Bəs Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində istintaq aparılan zaman harada idilər? Deməli, bu mənzillərlə bağlı yetərincə sübutu olmadığından, mülki məsələni qaldıra bilməyiblər. Bəlkə general Əliağa Hüseynov tutduğu vəzifəyə arxalanıb məhkəməyə təzyiq etmək istəyir? Axı hansı pullarla, hansı maaşla deputat bir gündə 12 mənzili alıb?".

Sakinlərin şikayətində maraqlı olan detal ondan ibarətdir ki, Əliağa Hüseynovun mənzilləri alması ilə bağlı iddia onun Milli Məclisin deputatı olduğu zamanı əhatə edir. Millət vəkilinin bir gündə, şəhərin mərkəzində 12 mənzil alması və sonra mübahisəli olan mənzillərə açıq iddia etməsi doğrudan da təəccüblüdür. Hər halda, bu cür halların ortaya çıxması və ictimai müzakirəyə buraxılması millət vəkili adına hörmət gətirmir. Xatırladaq ki, buraxılan parlamentin üzvü olan millət vəkillərindən biri buna bənzər olan mülki mübahisədə öz mandatını pul götürdüyü adamların yanında girov saxlamışdı. Bu cür neqativ hallar millət vəkili kimi müqəddəs bir missiyanın adına hansı formada xələl gətirir?

Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə halların baş verməsi cəmiyyətdə millət vəkili adına heç də xoş olmayan bir münasibət yaradır: "Ölkə Prezidenti dəfələrlə öz çıxışlarında məmurları şəffaflığa dəvət edib. Bundan millət vəkillərinə də pay düşür. Onlar cəmiyyətin ən həssas zümrəsi sayılır. Onların bütün davranışları cəmiyyət üçün örnək sayılmalıdır. Çünki xalq tərəfindən seçilirlər. İctimai nəzarətin belə məsələləri aşkar etməsi çox təqdirəlayiqdir. Prezident də dəfələrlə bunun vacibliyini vurğulayıb. Belə olan təqdirdə istənilən adamda sual yaranır: millət vəkili 12 evi necə ala bilib. Lap bir gündə yox, bir ildə alıb. Axı heç bir məllət vəkilinin aylıq məvacibi buna imkan vermir. Belə hallar, ümumilikdə, deputat adına qarşı bir ikrah hissi yaradır. Görün vəziyyət nə həddə çatıb ki, həmin kateqoriyaya aid insanlar bununla bağlı məhkəmə iddiası belə açırlar. Bizdə elə potensial məmurlar və ya millət vəkilləri var ki, buraxsan bir gündə gedib böyük şəhəri alarlar. Təbii ki, əllərində olan pul leqal deyil. Ona görə bir qədər çəkinirlər. Bunun üçün də, mütləq mənada, şəffaflıq, ictimai nəzarət təmin olunmalıdır. Jurnalistlər belə faktları ictimailəşdirdikcə, həmin adamların bir qədər ictimai rəydən çəkinəcəyi olacaq. Belə halların olmasını qınayıram. Ümid edirəm ki, yeni formalaşacaq parlamentdə biz bu kimi insanlara rast gəlməyəcəyik".

*Məhəmmədəli QƏRİBLİ*

# Dünya Ermənistan separatizminin daha dərin üzünü görür - İrəvandan Krıma təyyarələr uçsa...

**Məlum olduğu kimi, Ermənistan dünya dövlətləri arasında ilk dəfə Krım yarımadası ilə qarşılıqlı müntəzəm uçuşlar təşkil edəcək. Məlumata görə, Ermənistan artıq bu ildən Krımla müntəzəm aviareyslərə başlayacaq. Qeyd edilir ki, İrəvanla Simferopol arasında müntəzəm reyslərə martda start veriləcək.**

Uçuşları həyata keçirəcək aviaşirkət artıq bununla bağlı icazə alıb. Hazırda tərəflər arasında uçuş cədvəlinin uyğunlaşdırılması, həmçinin aeroportların razılaşdırılması prosesi həyata keçirilir. İlhaq edilmiş yarımadanın turizm, kurortlar və idman komitəsinin sədri Aleksey Çernyak da Rusiya Federal Hava Nəqliyyatı Agentliyinin ("Rosaviasiya") 2020-ci ildə Simferopol (Krım) və İrəvan hava limanları arasında aviaəlaqənin açılmasını razılaşdırdığını bildirib: "Cari ilin mart ayından Krım və Ermənistan arasında müntəzəm aviareyslərin başlanması planlaşdırılır. "İkar" aviaşirkəti artıq müntəzəm uçuşlar üçün "Rosaviasiya"dan müvafiq icazə və təsdiq alıb. İndi məsələ uçuş cədvəlləri və hava limanları ilə razılaşmalar baxımından hazırlıq və razılaşdırma mərhələsindədir. Uçuşlar mart ayından həftədə iki dəfə planlaşdırılır. Daha sonra isə tələbatdan asılı olacaq, lakin həftədə yeddi dəfədən artıq olmayacaq". Çernyak bu aviamarşrutun Krımın anneksiyasından sonra gerçəkləşdirilən ilk beynəlxalq reys olduğunu deyib. Separatçıların nümayəndəsi müntəzəm uçuşların açılmasının Krıma beynəlxalq uçuşların başlamasını və Simferopol hava limanının beynəlxalq statusunu daha da gücləndirəcəyini vurğulayıb.



Bütün bunlar Ermənistanın separatçılığa növbəti dəstəyi, eyni zamanda Ukraynaya da xəyanəti sayılır. Hesab edilir ki, reyslərin həyata keçməsinə başlandıqdan sonra Kiyev və İrəvan arasında ciddi diplomatik qalmaqal başlanacaq. Ukrayna onsuz da Ermənistanın Krımla bağlı siyasətindən ciddi narazılıq ifadə edir. Belə ki, bir müddət əvvəl Ukrayna Xarici İşlər Nazirliyi Ermənistan vətəndaşlarının və rəsmi nümayəndələrinin Krım bölgəsinə qanunsuz səfəri ilə bağlı rəsmi İrəvana xəbərdarlıq edib. Ermənistan isə beynəlxalq hüquqa məhəl qoymamaq siyasətini davam etdirir. Elə bu günlərdə Krımda istirahət edən "xarici turistlərin" 16 faizini Ermənistan vətəndaşlarının təşkil etdiyi məlum olub. Bunu səyahətçilər üçün fəaliyyət göstərən "Biletix" internet-servisinin məlumatları da sübut edir.

Ukrayna Ali Radasının Milli Təhlükəsizlik və Müdafiə Məsələləri üzrə Komitəsinin üzvü İrina Vereşçuk da bildirir ki, baş verənlər normal vəziyyət deyil. O, "media" portalına açıqlamasında bildirir: "Bu vəziyyət elə Krımın anneksiyasının lap əvvəlindən anormaldır. Ermənistanın BMT-də necə səs verdiyini xatırlayırıq. Mən artıq Ermənistanın Ukrayna ərazisi olan Krımın ilhaqını dəstəkləməklə düzgün davranmadığını demişəm və deməyə davam edəcəm. İndi də Ukraynaya münasibətdə öz siyasətinin davamında ermənilər xoşagəlməz fəaliyyətini sürdürür. Lakin bu, Ukrayna üçün qəbuledilməzdir. Çünki bizim Ermənistanla diplomatik, ticarət münasibətlərimiz var. Bütün bunlara baxmayaraq, Ermənistan vətəndaşları Ukrayna sərhədlərini qanunsuz keçirlər. Onları cinayət məsuliyyətinə cəlb etmək olar. Bizdə qanun pozucularına qarşı üç ilə qədər azadlıqdan məhrumetmə cəzası nəzərdə tutan 2018-ci ildə qəbul edilmiş qanun var. Bu qanun, həmçinin, xarici vətəndaşlara da aiddir. Bu vəziyyət həm Xarici İşlər Nazirliyinin, həm də parlamentin xüsusi diqqətini tələb edir. İrəvandan Simferopola birbaşa uçuşlar Ermənistanın Ukraynaya təcavüzü dəstəklədiyi anlamına gələcək. Ermənistanın Ukraynaya qarşı bu cür xoşagəlməz hərəkətlərə son qoyması üçün bütün qanuni vasitələrdən istifadə edəcəyik". Ukraynalı diplomat və politoloq Vadim Tryuxan bildirib ki, Rusiya üçün Krım hava limanları və Sevastopoldan müntəzəm birbaşa beynəlxalq aviaəlaqələrin təşkil olunması prinsip məsələsidir: "Ənənəvi olaraq Rusiyaya yönələn Ermənistan, çətin ki, belə bir təhlükəli presedentin yaradılmasına getsin. Düşünürəm ki, ukraynalı diplomatlar Ermənistan rəhbərliyinə belə bir hipotetik qərarın faydalarının onun mümkün nəticələrilə nisbətdə müqayisəolunmaz şəkildə az olacağını izah edə biləcəklər. Bu yaxınlarda Ukraynanın İrəvandakı səfirliyinə təcrübəli ukraynalı diplomat - İvan Kuleba rəhbərlik edib. Ukraynada gözəl bilirlər ki, Rusiya öz maraqları naminə bu yarımaslı ölkədən istifadə etməyə çalışacaq. Buna görə də bu və buna bənzər vəziyyətlərdə Ukrayna qabaqlayıcı tədbirlər görəcək". Ekspert bildirib ki, Ermənistan aviaəlaqəni yaratmaq qərarına gəlsə, bu zaman Qərb Ermənistana qarşı sanksiyalar tətbiq edə bilər.

**Ukraynalı politoloq, hər şeyə rəğmən, Ermənistanın Krımla aviaəlaqə yaratmaq qərarının qəbul edilməsi ilə bağlı özünə hesabat verəcəyinə ümid etdiyini, əks halda rəsmi İrəvanın mümkün fəsadlarla qarşılaşa biləcəyini bildirib. Hələlik isə hesab olunur ki, iki aydın sonra Ermənistandan Krıma həqiqətən də aviareyslər başlasa, Ermənistan buna görə təkcə Ukrayna yox, bir sıra digər dövlətlər, o cümlədən Qərb dünyası ilə də ciddi problem yaşayacaq. Dünya bir daha Ermənistanın separatçı siyasətinin nə qədər təhlükəli xarakter daşıdığını aydın görəcək.**

***Nahid SALAYEV***

# ABŞ-İran gərginliyi fonunda Paşinyana ciddi irad - "Bu budaqdan o birinə hoppanmaq siyasəti ilə davam edə bilmərik"

**Əvvəlki dövrlə müqayisədə ABŞ və İran arasında savaş təhlükəsi xeyli səngisə də, tam aradan da qalxmayıb. Hesab edilir ki, İraq ərazisində baş verənlər istənilən an tərəflər arasında böyük savaşa yol aça bilər.**

Xüsusən də İraqda ABŞ hərbçilərinin tez-tez atəşə tutulması vəziyyəti qəlizləşdirir. Elə bu günlərdə İraqda amerikalı hərbçilərin olduğu "Bələd" hərbi bazası növbəti dəfə raket atəşinə tutulub. Yerli mənbələrin məlumatına görə, naməlum istiqamətdən atılan "Katyuşa" tipli raketlərin əksəriyyəti hədəfə tuş gəlib. Hadisəyə görə məsuliyyəti hələlik heç bir qruplaşma üzərinə götürməsə də, hücumun İran dəstəkli qüvvələr tərəfindən təşkil olunduğu güman edilir.

Qeyd edək ki, Səlahəddin şəhərində yerləşən "Bələd" hərbi bazası İraqın ən böyük hərbi bazasıdır. Artıq ABŞ dövlət katibi Mayk Pompeo məsələyə sərt reaksiya verib. Onun dediklərindən belə bəlli olur ki, zərbələr davam etsə, ABŞ sərt şəkildə buna qarşılıq verəcək. Hadisələrin belə səpkidə gedişinin Yaxın Şərqə, eləcə də İranın qonşu olduğu Cənubi Qafqaza təsiri xüsusi maraq doğurur. Proseslərin gedişi ABŞ və İran arasında mümkün savaşdan Ermənistanın daha çox qorxuya düşdüyünü üzə çıxarır. Ermənistan parlamentinin xarici əlaqələr komitəsinin üzvü Arman Abovyan bu xüsusda bildirir ki, Ermənistan sərhədinə İrandan 1 milyon qaçqın gəlsə, dövlət çökər: "Görəsən, hakimiyyət bu barədə düşünürmü? Biz artıq "bu budaqdan o budağa hoppanmaq" siyasətinə davam edə bilmərik". O vurğulayıb ki, əvvələr Ermənistan hakimiyyəti ABŞ-la Rusiya arasında ikili siyasət apara bilirdisə, İran mövzusundan sonra belə davam etmək mümkün olmayacaq: "Biz artıq bir yol seçməliyik. Əks təqdirdə vəziyyət faciəvi həddə gəlib çıxa bilər.



Regionda baş verən hadisələrdən sonra biz ABŞ-la isti münasibətləri və eyni zamanda İranla iqtisadi əməkdaşlığı saxlaya bilməyəcəyik. Mən bizim xarici siyasətə cavabdeh insanların məntiqini başa düşə bilmirəm. Bu günə qədər yürütdüyümüz neytrallıq siyasətini davam etdirmək çətin olacaq".

Rusiyalı ekspert Fyodor Lukyanov da erməni tərəfinin mümkün savaşdan böyük zərər görəcəyini vurğulayır. Ekspert qeyd edir ki, ABŞ-la İran arasında gərginlik hərbi eskalasiya həddinə gəlib çıxsa, bu, Cənubi Qafqaz, xüsusilə də Ermənistan üçün çox boyuk fəsadlara yol açacaq. Onun sözlərinə görə, İran-la ABŞ arasındakı müharibədən Bakı da əziyyət çəkə bilər. Amma bu, İrəvanın başına gələ biləcəklərin yanında heç nədir: "Regiondakı hərbi eskalasiya ilk növbədə Ermənistanı cənginə alacaq. Cünki İrəvanla az sayda iqtisadi əlaqələri olan ölkələrdən ən başlıcası İrandır. Tehran Ermənistanın dünyaya çıxış üçün iki koridorundan biridir". Ekspert vurğulayir ki, Ermənistanda iqtisadiyyatın iflası Qarabağda partlayış effekti verə bilər, cünki hazırda bu konflikt "barıt çəlləyi"nə bənzəyir: "Bircə qığılcım kifayət edər. Hadisələrin bu tip cərəyan etməsi isə Ermənistan üçün gözlənilməz nəticələrlə sonlana bilər". Bu arada ABŞ analitikləri də İran və ABŞ-ın mümkün qarşıdurmasının nəticəsi olaraq Ermənistan və Cənubi Qafqazın təhlükəsizlik, siyasi və iqtisadi sahələrinə təsirinə toxunub. "Karnegi" Fondunun analitiki Pol Stronskinin fikrincə, İran və ABŞ arasındakı gərginlik Ermənistanı iki təməl daş arasında sıxaraq, İrəvanın ənənəvi siyasətini çətinləşdirir. Strateji Beynəlxalq Araşdırmalar Mərkəzinin analitiki Cefri Mankof isə bildirib: "Hər iki tərəfin birbaşa qarşıdurmadan yayınmasına baxmayaraq, narahatlıq üçün səbəblər var. Gərginliyin artması təhlükəsi hələ aradan qalxmayıb". Onun sözlərinə görə, Cənubi Qafqazda bölgədəki sabitliyin pozulmasından, qaçqınların axınından, terrorizm və hərbi toqquşmalar halında digər imkanlardan narahatdırlar. Ekspert vurğulayır ki, ABŞ və İran arasında hərbi qarşıdurma ehtimalını artıran bir hadisə baş verərsə, Cənubi Qafqazdakı bütün ölkələr daha həssas olacaq. Amma zəif iqtisadiyyata malik Ermənistan bundan daha çox əziyyət çəkəcək. Son hadisələr və Qarabağ münaqişəsinin yenidən başlanması ehtimalı arasında birbaşa əlaqənin olmamasına baxmayaraq, analitiklər bölgədəki hər hansı sabitliyin Qarabağ münaqişəsi tərəflərinə təsir etdiyini vurğulayır. Bu fonda xüsusi vurğulanır ki, İran və ABŞ arasında hərbi qarşıdurma ehtimalı Ermənistanla Azərbaycan arasında hərbi əməliyyatların yenidən başlaması ehtimalını artırır.

Təhlükəsizlik məsələsi ilə yanaşı, ekspertlər ABŞ-İran gərginliyinin artmasının, xüsusilə də Ermənistan üçün ağır iqtisadi nəticələrə səbəb olacağını vurğulayır. Cefri Mankof qeyd edir: "İranın iqtisadi potensialına xələl gətirən və iqtisadi fəallığının azalmasına səbəb olan addım İranla sıx iqtisadi əlaqələri olan Ermənistan üçün ciddi narahatlıq doğuran məsələdir". Ekspert qeyd edir ki, Ermənistan İranla iqtisadi əlaqələrdən, xüsusən turizm və enerji sektorlarından asılıdır. Analitiklər Ermənistanın İranla yaxın iqtisadi əlaqələrinin artan gərginliklər fonunda Vaşinqtonun İrəvana əlavə təzyiq göstərməsinə səbəb ola biləcəyini istisna etmir. Eyni zamanda, elə İran tərəfindən də analoji təzyiqlər tamamilə gözlənilən sayılır. Məhz bu da Ermənistanın daha çox təzyiqlər məngənəsinə düşməsini istisna etmir.

***Tahir TAĞIYEV***

**Təbii qaz nəqli sahəsində Avropanın cari il ərzində Rusiyadan gözləntiləri özünü tam şəkildə doğrultmayacaq. Ən azı o baxımdan ki, Rusiyanın "Şimal axını-2" qaz boru kəmərinin inşası artıq nəzərdə tutulan vaxtda həyata keçməyəcək.**

# "Şimal axını" gecikdi - Rusiya qarşısında qazı Azərbaycan üzərindən satmaq zərurəti yetişir




Qeyd edək ki, kəmərin inşası əslində ötən ilin sonunda başa çatmalı idi. Amma ABŞ-ın və bəzi Avropa ölkələrinin mövqeyi üzündən proses ləngiyir. Qeyd edək ki, ABŞ prezidenti Donald Tramp ötən ilin dekabrında bu layihəyə qarşı sanksiya qərarı qəbul edib. Bundan sonra İsveçrənin "Allseas" boru şirkəti layihədə fəaliyyətini dayandırıb. Daha sonra isə ABŞ Senatı "Şimal axını-2" kəmərinin inşasına dəstək verən podratçılara qarşı yeni sanksiyaları özündə ehtiva edən "2020-ci il üçün Müdafiə Büdcəsi Qanunu"nu qəbul edib. Məhz bütün bunlar kəmərin nəzərdə tutulan vaxtda istismara verilməsini sual altına alıb. Məsələyə yenidən toxunan Rusiya prezidenti Vladimir Putin Almaniya kansleri Angela Merkellə keçirdiyi mətbuat konfransında bildirib ki, "Şimal axını-2" nəzərdə tutulan vaxtda istismara verilməyəcək: "Rusiya "Şimal axını-2" layihəsinin tikintisini xarici tərəfdaşların iştirakı olmadan özü başa çatdıra biləcək. Yeganə sual vaxt məsələsidir". Putin qeyd edib ki, son tarixlər dəyişdiriləcək: "Ümid edirəm ki, bu ilin sonu və ya gələn ilin birinci rübünün axırında işlər başa çatacaq və qaz kəməri fəaliyyət göstərəcək". Almaniya kansleri isə öz növbəsində "Şimal axını-2" layihəsinin iqtisadi layihə olduğunu vurğulayıb: "Düşünürəm ki, layihə, Amerikanın sanksiyalarına baxmayaraq, həyata keçiriləcək. Siyasi problemlərə baxmayaraq, sanksiyaların səhv bir yol olduğuna inanırıq və bu layihəni dəstəkləməyə davam edəcəyik". Avstriyanın xarici işlər naziri Aleksander Şallenberq də "Şimal axını-2" kəmərinə sanksiyaların tətbiqini tənqid edib və bunun qəbuledilməz olduğunu bildirib. Onun sözlərinə görə, boru kəməri Avropanın enerji təminatının şaxələndirilməsinə təminat verir və Ukraynanın maraqlarına zidd deyil. ABŞ və Avropa İttifaqı ölkələrinin müştərək dəyərləri bölüşdüyünü deyən nazir bildirib: "Hazırda biz 30 il əvvəlin metodlarından istifadə edə bilmərik. Bu gün dünya çoxqütblü olub".

Amma fakt budur ki, sanksiyalar səbəbindən "Şimal axını-2" ləngiyir. Kremlin sözçüsü Dmitri Peskov etiraf edir ki, "Allseas" şirkətinin işləri dayandırması layihənin istifadəyə verilməsi vaxtını ertələyəcək, lakin buna mane olmayacaq: "ABŞ-ın qanunsuz sanksiyalarına görə şirkət işlərin dayandırılmasına qərar verib. Şirkətin qərarı, şübhəsiz ki, layihənin istifadəyə verilməsi vaxtını ertələyəcək, lakin prosesə mane olmayacaq. Ümid edirik ki, layihə geciksə də, istifadəyə veriləcək və bunun üçün imkanlar var". Milli Energetika İnstitutunun baş direktoru Sergey Pravosudov da iddia edir ki, Rusiya "Şimal axını-2" qaz kəmərinin tikintisini özü başa çatdıracaq. O, həmçinin deyib ki, İsveçrənin "Allseas" şirkəti layihədə işinə qayıda bilər: "Bu baş verməsə, Rusiya Federasiyasının suyun altında boru tikintisi üçün öz gəmisi - "Akademik Çerski" var". İndilikdə "Şimal axını-2" kəmərinin çəkilişinin dayandırılmasına baxmayaraq, "Qazprom" konserni həmin kəməri işlək vəziyyətdə saxlamaq məqsədilə onun Almaniya seqmentinə ("Şimal axını-2"nin Almaniyaya aid hissəsi "Eugal" adlanır) "Nel" xəttindən mavi yanacaq vurmağa başlayıb. "Gascade" şirkətinin mətbuat katibi Corc Vüstner bəyan edib ki, "Eugal" formal baxımdan boş dayanmır, lakin səmərəsiz işləyir, yeni kəmərə vurulan qaz konkret istehlakçılara çatdırılmaq üçün nəzərdə tutulmur. Bu yalnız kəməri texniki baxımdan saz vəziyyətdə saxlamağa xidmət edir. Enerji təhlükəsizliyi məsələləri üzrə ekspert Alfred Herhard bildirib ki, kəmərə vurulan qazın havayı getməsi konsernə baha başa gəlir və bu vəziyyət sonsuzadək davam edə bilməz. Məhz bu vəziyyətdə kəmərə qaz vurulmasının dayandırılması da istisna olunmur. Eyni zamanda belə görünür ki, Rusiya qazını Avropaya "Şimal axını-2" ilə istədyi vaxtda çatdıra bilməyəcək. Məhz bu şəraitdə Rusiyanın Azərbaycan kəmərlərindən istifadə etməsi istisna olunmur.

Xatırladaq ki, Azərbaycan qazını Avropaya çatdıracaq "Cənub Qaz Dəhlizinin" son halqası sayılan TAP da tezliklə tamamlanacaq. Ötən ilin noyabrında isə TAP-ın Yunanıstan hissəsində sınaq məqsədilə qaz nəqlinə başlanıb. Belə ki, Yunanıstandakı Evros çayı ilə Kipoidəki kompressor stansiyası arasında boru kəmərinin 2 kilometrlik hissəsinə təbii qaz qəbul edilib. Bu, boru kəmərinin istismara verilməsi prosesinin ilkin mərhələsidir. TAP vasitəsilə ticari məqsədlə qaz nəqlinin 2020-ci ilin oktyabrında, yəni İtaliyaya qədər olan hissənin tam istifadəyə veriləcəyi və sınaqdan keçiriləcəyi vaxtda gözlənilir. İlk mərhələ istifadəyə verildikdən sonra təbii qaz tədricən boru kəmərinin Yunanıstan marşrutunun digər hissələrinə, eləcə də Albaniya və İtaliyaya mərhələli şəkildə nəql edilməyə başlanacaq. TAP konsorsiumu təbii qaz tədarükçülərinin maraqlarını ifadə etməyə imkan verəcək bazar sınaqlarına da başlayıb.

**Məqsəd sonrakı mərhələdə TAP-ın genişləndirilməsi imkanlarını araşdırmaqdır. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur. Bundan əvvəl isə Rusiya öz qazını TANAP və daha sonra TAP vasitəsilə ixrac etməyin mümkünlüyünü bildirib. "Şimal axını-2" kəmərinin çəkilişinin dayandırılması Moskvanın bu məsələdə marağını daha da artıra bilər.**

***Tahir TAĞIYEV***

**Ötən ildən etibarən bankların istehlak məqsədilə ayırdıqları kreditlərin miqdarını yenidən artırması artıq rəsmi dairələrdə də ciddi narahatlıqla qarşılanır. Aydın görünür ki, indiki halda bank sektoru iş adamlarının öz bizneslərini inkişaf etdirmələri üçün borc vəsaitləri vermək əvəzinə, əhaliyə istehlak krediti verməyə üstünlük verir.**

# Banklar maliyyə sistemini çökdürən kursdan əl çəkmir, Elman Rüstəmovun tövsiyələri yerə düşür...




Bankların bu siyasətinin təhlükəli tərəfi odur ki, onlar bununla malların idxalını və inflyasiya gözləntilərini stimullaşdırır.

Qeyd olunduğu kimi, bu vəziyyət rəsmi dairəldərdə də narahatlıq yaradır. Mərkəzi Bankın sədri Elman Rüstəmov sahibkarlarla görüşdə bu mövzuya xüsusi toxunaraq, yenidən istehlak kreditlərinin artımından narahatlığını dilə gətirib:"Azərbaycanın maliyyə sektorunda canlanma və bərpa proseslərinin getdiyini görürük. Baxmayaraq ki, sektorda kövrəklik qalıb, banklar restrukturizasiyanı başa çatdırmayıb, amma biz kreditləşmənin artdığını görürük. Lakin yenə də qeyd etmək istəyirik ki, burada başlıca drayver rolunu oynayan istehlak kreditləridir. Biznes kreditlərində əhəmiyyətli artım görmürük. Bu da əsas müzakirə mövzularından biri olmalıdır. Yəni biz necə edək ki, real sektorun kreditləşməsini artıra bilək. Çünki bu, bilavasitə iqtisadi artımla, iqtisadi dinamika ilə əlaqəsi olan seqmentdir".

Ekspertlər bildirir ki, hökumətin bu məsələdə narahatlığı əbəs deyil. Çünki istehlak kreditlərinin artımı həm problemli kreditlərin çoxalmasına rəvac verir, həm də idxalı stimullaşdırır. Bu isə daxili istehsal üçün müəyyən problemlər deməkdir. Araşdırmalar göstərir ki, banklar istehlak kreditlərinin verilməsində artıq faiz dərəcələrinin azalmasına da gedir. Bunun əsas səbəblərindən biri odur ki, Mərkəzi Bank uçot dərəcəsini əhəmiyyətli dərəcədə azaldıb. Belə vəziyyət bankların kreditləri müəyyən qədər ucuzlaşdırmasına imkan verir. Yəni belə tədbirlər fiziki şəxslərə verilmiş kreditlər üzrə faiz dərəcələrinin əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxarır. Amma burada daha çox narahatlıq doğuran məsələ götürülmüş borcların artıq 50%-nin istehlak kreditlərinə yönəldilməsidir.

Araşdırmalar göstərir ki, əhali borc olaraq götürdüyü vəsaitləri avtomobil, mobil telefonlar, mebel, elektrik cihazları və digər belə tələbat mallarının alınmasına xərcləyir. Azərbaycanda göstərilən bütün mal çeşidləri əsasən idxal olunur və bu da ölkədə inflyasiya gözləntilərini artıran amillərdən sayılır.

Halbuki, indiki şəraitdə əhali üçün nəzərdə tutulmuş istehlak kreditlərinə ayrılan bank-maliyyə vəsaitlərinin iş adamlarına yönəldilməsi daha məqsədəuyğundur. Əks təqdirdə, əldə olan pul kütləsi ilə bazarda olan əmtəənin uyğunsuzluğu məhsul idxalının artımına gətirib çıxaracaq ki, bu da inflyasiyanın yüksəlməsinə səbəb olacaq. Hesab olunur ki, artıq məsələyə inzibati qaydada müdaxilə də olduqca önəmlidir. Burada həm də bankirlərin iş adamları ilə dialoqunu sürətləndirən və son nəticədə ölkədə məhsul istehsalını artırmaq üçün sahibkarlıq subyektlərinə kredit verməyə stimullaşdıran addımların atılması çox önəmlidir. Bankirlərin, xüsusən bölgələrdə biznesə yatırım etməsi üçün mövcud problemlər tam aradan qalxmalıdır. Bura ilk növbədə etibarlı girov təminatının olmaması kimi problemin həlli aiddir.

İndilikdə isə banklar istehlak kreditinə yönəlməyə xüsusi diqqət yetirir. Çünki istehlak krediti üzrə faiz dərəcələri real sektora yönəldilən kredit faizləri ilə müqayisədə daha yüksəkdir. Buna görə də, kommersiya bankları müştərilərinə daha çox istehlak kreditləri təklif edirlər. Ekspertlər onu da bildirir ki, bankların istehlak kreditlərinə marağının artması, əvvəlki kimi, daha qısa zamanda gəlir əldə etmək istəyi ilə bağlıdır. Yəni banklar çalışır ki, daha qısa zamanda gəlir əldə etsin.

Bu da nəticədə istehlak kreditləşməsinə marağın artmasına gətirib çıxarır. Bu, eyni zamanda, real sektorun kreditlərə olan tələbinin ödənilməsinə imkan vermir və real sektor tələb olunan maliyyəni digər mənbələrdən əldə etmək məcburiyyətində qalır. Yaranmış durum bankların özü üçün də təhdid doğurur. Çünki istehlak kreditləri artan zaman banklar xarici şoklara reaksiya verə bilmir, əhalinin gəlirlərinin strukturunda dəyişiklik baş verdiyi halda problemli kreditlərin həcminin artması müşahidə olunur.

**Hər halda, artıq bu hal Azərbaycan təcrübəsində müşahidə olunub. Ekspertlərin fikrincə, bu baxımdan Mərkəzi Bank tərəfindən vəziyyətin tənzimlənməsinə ehtiyac var. Eyni zamanda, bu halda real sektora daha çox kreditin təklif edilməsi üçün təşviqedici tədbirlərin gücləndirilməsi vacibdir. Əks halda, istehlak kreditləşməsi nə ölkə iqtisadiyyatı, nə də bank sektorunun özü üçün arzuolunandır. Onu da bildirək ki, bu gün bank sektorunda əhəmiyyətli dərəcədə maliyyə ehtiyatları var. Amma yenə də biznes kreditləri artmır. Bu səbəbdən baş bank tərəfindən kompleks stimullaşdırıcı tədbirlər görmək vacibdir ki, əlavə vəsaitlər bütövlükdə real sektora getsin və ölkədə daxili investisiya prosesini dəstəkləsin. Məhz bu halda istehsal sahəsində daha çox artımın olması mümkün sayılır. Elə hökumətin də istəyi məhz budur.**

***Ramil QULİYEV***

# Maliyyə Palatası ləğv olundu, valyuta kreditlərinə görə "Prezident kompensasiyalarının" ödənilməsi tam başa çatmadı, məsələ Mərkəzi Bankda ilişib...

**Məlum olduğu kimi, ötən ilin noyabrında Prezident İlham Əliyev "Maliyyə xidmətləri bazarında tənzimləmə və nəzarət sisteminin idarə edilməsinin təkmilləşdirilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncamla Maliyyə Bazarlarına Nəzarət Palatası (MBNP) ləğv edilib. Sözügedən qurumun vəzifələri, səlahiyyəti, hüquqları, habelə əmlakı Mərkəzi Banka verilib.**



## *Fikrət Yusifov: "Müxtəlif bürokratik əngəllər üzündən vətəndaşlar onlara düşən kompensasiyanı ala bilmədilər"*

Ancaq "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Prezident Fərmanının icrasına başlandığı gündən əhalinin bəzi banklardan narazılığı artmaqda davam edir. Yəni qurumun Mərkəzi Bankla birləşdirilməsi sözügedən problemlərin həllinə gətirib çıxarmayıb. Zamanında MBNP-nin bu problemi həll etməməsi indi də bir sıra vətəndaşların bundan əziyyət çəkməsinə gətirib çıxarıb. Məsələ ondadır ki, Prezident İlham Əliyevin qərarı ilə fiziki şəxslərin problemli valyuta kreditləri ilə bağlı dövlət büdcəsindən vəsait ayrıldı. Ancaq indiyə qədər sözügedən kompensasiyaların ödənilməsi tam başa çatmayıb. Hələ də bəzi vətəndaşlar buna görə onlara çatacaq kompensasiyanı ala bilmirlər.

Vətəndaşlara dövlət tərəfindən müəyyən edilən kompensasiyaların ödənişində ciddi süründürməçiliyə yol verilir. Bir müddət əvvəl analoji məzmunlu şikayətlə "Bakı-Xəbər" qəzetinə Qasımov Amil Bərxudar oğlu müraciət edib. O hazırda fəaliyyəti dayanan "Zamin Bank"dan götürdüyü kreditə görə bu vəziyyətlə üzləşib. Belə ki, A.Qasımov 2015-ci ildə həmin bankdan 5100 dollar kredit götürüb. Həmin vaxt dolların kursu 1 manat 05 qəpik olub. Bunun qarşılığında o, banka borcunu artıqlaması ilə qaytarıb. Kurs 1.70 olanda 12.500 manat qaytarıb. Prezidentin müvafiq fərmanı çıxandan sonra bankdan ona sənəd verilib ki, 4588 ABŞ dolları qalığın var. Yəni həmin pul kompensasiya kimi ona qaytarılmalıdır. Bu da 7800 manat edir. Vətəndaş pulu çıxarmaq istəyəndə məlum olur ki, həmin məbləğ "Zamin Bank"ın cari hesabındadır. Lakin hesab bloklandığı üçün vəsaiti çıxarmaq mümkün olmayıb. Get-gəldən sonra vətəndaşa deyiblər ki, hesab aç, ora pul köçürüləcək. Ancaq A.Qasımovun hesabına cəmi 600 manat pul köçürülüb. Daha sonra poçt vasitəsilə ünvanına 353 manat pul göndərilib. Daha sonra Azərbaycan Əmanətlərin Sığortalanması Fondundan A.Qasımova göndərilən rəsmi məktubda qeyd olunub ki, MBNP ona 2619 manat ödəməlidir.

*"Çıxış yolu odur ki, Mərkəzi Bank bu yöndə işləri sürətləndirsin"*

Buna baxmayaraq, A.Qasımov MBNP-nin verməli olduğu 2619 manat pulu hələ də ala bilməyib. Qurumun Mərkəzi Banka birləşdirilməsi həmin vəsaitin vətəndaşa qaytarılmasına gətirib çıxarmayıb. Məsələ ilə bağlı Mərkəzi Bankdan münasibət öyrənməyə çalışsaq da, bu mümkün olmadı.

Məsələyə münasibət bildirən iqtisad elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, bir sıra vətəndaşlar belə problemdən əziyyət çəkir və onlara düşən kompensasiyanı ala bilmirlər: "Ona görə də Mərkəzi Bank bu istiqamətdə işlərini sürətləndirməlidir. Faktiki olaraq vətəndaşlar get-gəl arasında qalıblar. MBNP öz işinin öhdəsindən gələ bilmədi. Müxtəlif bürokratik əngəllər üzündən vətəndaşlar onlara düşən kompensasiyanı ala bilmədilər və bu vəziyyət indi də davam edir. Sonra Palata ləğv edildi və səlahiyyətləri MB-yə verildi. Ancaq hələ də problem kökündən həll edilməyib.

Ona görə də çıxış yolu odur ki, MB bu yöndə işləri sürətləndirsin. Çünki qurum ləğv edilsə də, səlahiyyətləri MB-yə verilib. Keçmiş MBNP-nin həll etmədiyi işləri MB həll etməlidir. Çünki bu qurumda peşəkarlıq daha yüksəkdir. Ona görə də MB bu yöndə fəaliyyətini artırmalıdır".

***Vidadi ORDAHALLI***

# Azərbaycan nələrin hesabına ilin ən yaxşı ölkələrindən biri oldu...

**Azərbaycan 2019-cu ilin "Ən yaxşı ölkələri"nin siyahısında yer alıb. Baş ofisi ABŞ-da yerləşən "U.S. News & World Report" adlı media şirkəti "BAV Group" və "The Wharton School of the University of Pennsylvania" ilə birlikdə 2019-cu ilin "Ən yaxşı ölkələri"nin siyahısını açıqlayıb.**

*"...ölkəmiz dünyada öz sözünü demiş ölkələrlə rəqabət aparmağa hazırdır"*

## *Azər Allahverənov: "Azərbaycanın güclü ölkələr siyahısında yer alması sevindiricidir"*



Siyahıda yer almış dünyanın 80 ölkəsi arasında Azərbaycan da yer alır. Siyahı dünya üzrə 20.000-dən çox müxtəlif ölkə vətəndaşı ilə aparılmış sorğu əsasında ayrı-ayrı kriteriyalar üzrə, o cümlədən, vətəndaşlıq, mədəni təsir, sahibkarlıq, biznes üçün açıqlıq, güc, həyat səviyyəsi kimi meyarlar əsasında hazırlanıb. Təqdirəlayiq haldır ki, ölkə gücünün qiymətləndirilməsində Azərbaycan bir çox aparıcı ölkəni geridə qoyaraq 45-ci yeri tutub.

2019-cu ilin "Ən yaxşı ölkələri"nin siyahısında Azərbaycanın yer almasına münasibət bildirən sosial sahə üzrə ekspert Azər Allahverənov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Azərbaycanın güclü ölkələr siyahısında yer alması sevindiricidir: "Zamanla ölkəmiz bir sıra sahələr üzrə əksər xarici ölkəni qabaqlayıb. Ən yaxşı ölkələr siyahısında yer alan 80 ölkə birinci qrupa aid olan ölkələrdir. 80 ölkə yaxşıların yaxşısı sayılır. 80 ölkə arasında Azərbaycanın 45-ci yer tutması sevindirici haldır.

**Biznesə açıqlıq kateqoriyası üzrə Azərbaycan beynəlxalq təşkilatların keçirdiyi sorğularda ön sıralarda yer alıb. Azərbaycanda biznesə açıqlıq, bu sahəyə xüsusi həssaslıqla yanaşılması tək yerli ekspertlərin deyil, beynəlxalq ekspertlərin də diqqətini cəlb edir.**

Azərbaycanda əhalinin həyat səviyyəsinin yüksəlməsi son illər açıqlanan statistik rəqəmlərdə də özünü göstərir. Bu sahədə aparılan işlər sayəsində qarşıdakı illərdə də ölkə əhalisinin həyat səviyyəsi daha da artacaq".

Həmsöhbətimiz hesab edir ki, Azərbaycanın güclü ölkələr arasında yer alması onu göstərir ki, ölkəmiz dünyada öz sözünü demiş ölkələrlə rəqabət aparmağa hazırdır.

***Günel CƏLİLOVA***

# Xeyrəddin Qoca 70-ə gəlib çatdı...

**Müasirlərimiz olan yazıçılara, dramaturqlara, xüsusən də satirik qələm ustalarına çox zaman Mirzə Cəlilin, Sabirin, Əbdürrəhim bəy Haqverdiyevin, eləcə də digər dahilərin davamçısı kimi baxırıq. Bəzən bizə elə gəlir ki, çağdaş satiriklər, dramaturqlar o böyük şəxsiyyətlərin yarımçıq qalan sözünü yazırlar, yarıda qırılan fikirlərini davam etdirirlər.**

Bu missiyanı daşımasalar belə, biz onlara bəzən bu şəkildə yanaşırıq. Bəlkə bu ondan doğur ki, 100 il əvvəl dahilərin tənqid edib, yana-yana qələmə aldıqları problemlər bu gün də mövcuddur, bu gün də o problemləri qələmə alıb yazanlar var. Qələmin də "ürəyi" daşdan deyil ki, xalqın, cəmiyyətin dərdini yana-yana yazır, "ürəyi" daş olsaydı, yazmazdı.

70 yaşını qeyd etməyə hazırlaşdığımız yazıçı-dramaturq, publisist Xeyrəddin Qocanın "Biz bizə bənzərik..." kitabı bizim özümüzdən əvvəlkilərə bənzəyişimizi, onların yaşadıqları problemləri təkrarən yaşamağımızı özümüzə göstərən bir aynadır.

X.Qocanın yazdıqları hər zaman aktualdır. Xeyrəddin müəllim ömrünün növbəti baharını yaşayır. Mən 70 yaşlı Xeyrəddin müəllimin şəxsiyyətini də, yaradıcılığını da bahara bənzədirəm. Baxmayaraq ki, o, qışın oğlan çağında - yanvarın 29-da dünyaya gəlib, amma qışa yox, bahara bənzəyib. Onun 70 yaşının tamam olduğunu eşidəndə qulaqlarıma inanmadım. Haqqında dəfələrlə yubiley yazıları yazmağıma baxmayaraq, yenə də Xeyrəddin müəllimin 70 yaşının olmasına inanmaq istəmədim. Amma reallıq budur ki, onun 70 yaşının tamam olmasına sayılı günlər qalıb.

Bu gün çoxumuzun evində, kitab rəfində X.Qocanın kitabları var və bu kitabları sevə-sevə oxuyuruq. Həm ona görə ki, bu kitabları Xeyrəddin müəllim yazıb, həm də o səbəbə ki, o kitablarda cəmiyyətimizin qara sancısına çevrilən bəlaların, mənəvi aşınmanın, çoxlu neqativ halın, mədəniyyətsizliyin sözlə qamçılanan varlığını, obrazını görürük. Xeyrəddin müəllim yazır ki, yazdıqlarından nəticə çıxaranlar olsun. Nə yazıq ki, onun "qəhrəmanları" nəticə çıxarmağa tələsmirlər, əksinə, özlərini bir qədər də pis aparırlar.

X.Qocanın "Filankəslər" (1995), "Hərə öz payını götürsün" (1998), "Marallar" (2000), Türkiyədə nəşr olunmuş "Bu dünyadan məktublar" (2002), "Gərək yazam..." (2003), "Hərənin öz payı" (ikihissəli satirik komediya, 2003), "Pyeslər" (2004), "Bu da belə həyatdır..." (2008), "Biz bizə bənzərik..." (2010), "Yazdıqlarım...Yazılanlar..." və sair adlı kitabları nəşr edilib və bu kitablar dərhal özünə böyük oxucu auditoriyası qazanıb.

2000-ci ildə Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı tərəfindən buraxılan "Xeyrəddin Qoca" adlı fotokitab yazıçının həyat, yaradıcılıq yolunun güzgüsüdür. Yazıçı haqqında 2013-cü ildə nəşr edilən "Həyati proseslərin axarında" məqalələr, sənədlər, fotoşəkillər kitabı da özözlüyündə xeyli maraqlıdır. Burada yazıçının sənət dostları ilə yazışmaları, onların sənətkara ünvanladıqları məktublar, fikirlər yer alıb. Eyni zamanda da buradakı hər bir foto X.Qocanın sənət dostları, ayrı-ayrı mədəniyyət, elm, siyasət, ictimai xadimlərlə görüşlərinin canlı mənzərəsini görürük.

Qeyd edim ki, Azərbaycan Yazıçılar Birliyinin üzvü X.Qoca 1995-ci ildə 1-ci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilib. 1997-ci ilin dekabrından 2003-cü ilin mart ayına qədər Türkiyə Cümhuriyyətinin İstanbul şəhərində Azərbaycan Respublikasının baş konsulu vəzifəsində işləyib. Ona 1-ci dərəcəli fövqəladə və səlahiyyətli elçi rütbəsi verilib.



X.Qoca bir ziyalı kimi hər zaman cəmiyyətin içindədir və müxtəlif tribunalardan xalqa öz sözünü deyir, onu narahat edən məsələlərə münasibətini bildirir. O, ütülü danışmağı sevmir, həmişə açıq danışmağa üstünlük verir. Bu da yazıçıya, ziyalıya yaraşan keyfiyyətdir.

Qələm adamının jurnalistikanın müxtəlif janrlarında minlərlə yazısı Azərbaycanda və xaricdə çıxan 100-dən çox müxtəlif adda qəzet və jurnalda dərc edilib. Xaricdə və Azərbaycanda televiziya və radio efirində yüzlərlə verilişi, süjeti və çıxışları səslənib. Onun səs yazılarının bir qismi, videolentlərə yazılmış tamaşaları Azərbaycan Respublikası Dövlət Səs Yazıları Arxivində, qəzet və jurnallarda dərc olunan yazıları və kitabları S.Mumtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivində, son yaradıcılıq məhsulları isə şəxsi arxivində qorunub saxlanılır.

Xeyrəddin müəllim bədii tərcümə sahəsinə də töhfələr verib. O, böyük türk satiriki Əziz Nesinin bir sıra əsərlərini dilimizə çevirib.

Dramaturqun Akademik Milli Dram Teatrında "Hərənin öz payı..." adlı ikihissəli satirik komediyası tamaşaya qoyulub (2002). Onun "Qonşulaşma, qohumlaşma, kirvələşmə" adlı komediyası Azərbaycan Dövlət Televiziyasında ekran həyatı tapıb (2004). "Düzü-düz, əyrini-əyri" (2006), "Bu bizim zəmanədir" (2007), "Toy olacaq..." (2008) adlı pyesləri Azərbaycan Radiosunun tamaşaları kimi efirdə səslənib. X.Qocanın həyat və yaradıcılığına həsr olunmuş "Xeyrəddin Qoca" (fotokitab) (2000) və "Ömür belə keçir..." (2004) adlı kitablar nəşr olunub. "Çinar-çap" nəşriyyatı "Xeyrəddin Qocanın gülüşü" adlı miniatür kitab buraxıb (2007). İctimai Televiziya yazıçı haqqında "Ömür belə keçir..." adlı film çəkib. (2009). Heydər Əliyev Sarayında Azərbaycanda ilk dəfə "Bilirəm, səsim xoşunuza gəlməyəcək..." adlı satira gecəsi keçirib (avqust 2003). C.Cabbarlı adına İrəvan Azərbaycan Dövlət Dram Teatrında "Vəzifə dəlisi" pyesi tamaşaya qoyulub.

Mədəniyyət və incəsənət sahələrində böyük xidmətlərinə görə 19 mart 2007-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Prezidentin fərdi təqaüdünə layiq görülən X.Qoca uzun müddət Moskvada çıxan "Trud" qəzetinin ictimai müxbiri olub, qəzetin işində fəal iştirakına görə Fəxri Fərmanla təltif olunub (1986), Azərbaycan Kütləvi İnformasiya Vasitələri Həmkarlar İttifaqı Rəyasət Heyətinin qərarı ilə Azərbaycan demokratik mətbuatının təşəkkülündə görkəmli xidmətlərinə görə "Qızıl qələm" (1994) mükafatına layiq görülüb. Azərbaycan Mətbuat Fondunun "Dan ulduzu" (1995) mükafatını alıb. Mətbuatda uzunmüddətli səmərəli fəaliyyətinə, ədəbi-bədii, publisistik yazılarında vətəndaşlıq mövqeyinə, satira və yumor janrındakı kitablarına görə "Araz" Ali Ədəbi Mükafatı (2001) ilə təltif olunub. "Pyeslər" kitabında, "Hərənin öz payı...", "Qonşulaşma, qohumlaşma, kirvələşmə", "Bu bizim zəmanədir..." kimi dram əsərlərində ictimai problemləri işıqlandırdığına, güclü satirik-yumoristik təhkiyəsinə, özünəməxsus üslubuna, estetik-sənət axtarışlarına görə Bakı Kitab Bayramında Milli Kulturoloji mükafat-diplom alıb (2005).

Yazıçı 2017-ci ildə 3 dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunub. Ümid edirik ki, 70 illik yubileyi münasibətilə görkəmli yazıçımız Xeyrəddin Qoca dövlətin daha yüksək mükafatına layiq görüləcək.

**Qarşıdan gələn 70 illik yubileyi münasibətilə dəyərli yazıçımız, gözəl insan, ustad sənətkar Xeyrəddin Qocanı təbrik edir, ona yeni-yeni yaradıcılıq uğurları, ən əsası isə cansağlığı arzulayırıq!**

***İradə SARIYEVA***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Gömrük sistemində aparılan islahatlar: nəticələr, perspektivlər

**Hər bir ölkənin iqtisadi təhlükəsizliyinin qorunması gömrükdən başlayır. Azərbaycan dövlətinin də iqtisadi təhlükəsizliyinin əsas təminatçılarından biri ölkə gömrüyüdür ki, ölkəmizə idxal edilən, ölkəmizdən ixrac edilən bütün məhsulların, malların keçirilməsi gömrük vasitəsilə reallaşdırılır.**

Ölkəmiz üçün təhlükəli olan, yaxud ola bilən istənilən məhsulun, nəşrin, eləcə də digər vasitələrin respublikamıza keçirilməsinin qarşısının alınmasında, saysız təxribatın zərərsizləşdirilməsində Azərbaycan gömrüyünün rolu böyükdür. Gömük işçiləri yalnız bizim iqtisadi təhlükəsizliyimizin deyil, həm də mənəvi təhlükəsizliyimizin qoruyucuları kimi özlərini göstərə bilirlər. Azərbaycan gömrüyü müasir dünyanın bütün çağırışlarına cavab verən, inkişaf edən, etibarlılığı ilə diqqəti çəkən bir orqandır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən uğurlu iqtisadi strategiyanın keşiyində dayanan Azərbaycan gömrüyü dövlətçilik təməlinin möhkəmləndirilməsində əhəmiyyətli rola malikdir. Azərbaycanın quru, hava və dəniz yollarında təhlükəsizliyi qoruyan gömrük əməkdaşları dövlətimizin mənafeyini hər şeydən uca tuturlar. "Gömrük xidməti hər bir dövlətin müstəqilliyinin əsas atributlarından biridir" - deyən Heydər Əliyev gömrük xidmətinin ölkə iqtisadiyyatının inkişafında rolunu yüksək qiymətləndirir və bu orqanın fəaliyyətini daim diqqətdə saxlayırdı.

Azərbaycan gömrüyü zəngin tarixə malikdir. Orta əsrlərə aid sənədlər sübut edir ki, Azərbaycanın xarici ticarət əlaqələrinin çox qədim tarixi var. Hələ IX əsrdə Azərbaycan ərazisində gömrük vergiləri tətbiq olunurdu. XVIII əsrin sonu - XIX əsrin əvvəllərinə kimi, yəni Azərbaycanın Çar Rusiyası tərəfindən işğalına qədər burada sərbəst vergi və gömrük siyasəti yeridilirdi.

Azərbaycanda ilk gömrük idarəsi isə Çar Rusiyasının Bakı xanlığını işğal etməsindən sonra yaradılıb. Bakı şəhərində gömrükxana Rusiya imperatoru I Aleksandr tərəfindən Rusiya İmperiyası Senatına 25 yanvar (9 fevral) 1807-ci ildə təqdim olunan "Bakı şəhərində gömrükxananın təsis edilməsi barədə" fərmanla yaradılıb və Həştərxan gömrük dairəsinin tərkibinə daxil edilib. Sonralar Azərbaycanda Astara və Culfa gömrük məntəqələri də açılıb. Məlumdur ki, Azərbaycanda ilk gömrük idarəsinin yaradılmasından 200 ildən artıq bir vaxt keçir.

1918-ci il mayın 28-də Azərbaycan müstəqilliyini elan etdikdən sonra Xalq Cümhuriyyəti gömruklə bağlı görüləcək işlərə də xüsusi diqqət yetirib. Həmin il dekabrın 17-də parlamentdə gömrüklə bağlı qərar qəbul edilib. Gömrük məntəqələrində ciddi yoxlamalar aparılıb, yeni gömrük məntəqələrinin, zastavalarının, keçid postlarının yaradılması zəruri hesab olunub. Lakin cəmi 23 ay mövcud olan müstəqil Azərbaycan dövlətinin digər mühüm fəaliyyət sahələri kimi, gömrük işinin inkişafı da tamamlanmadı.

1920-ci il aprelin 28-də Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra isə buradakı sərhəd məntəqələrində Sovet İttifaqına məxsus gömrük xidməti orqanları fəaliyyət göstərib. Lakin onların heç biri Azərbaycan Respublikasının bilavasitə fəaliyyəti ilə bağlı olmayıb. Çar Rusiyasının xələfi olan Sovet İttifaqında xarici ticarətin dövlət inhisarına keçməsi ilə gömrük xidmətinin əhəmiyyəti azaldılıb və müxtəlif iqtisadi orqanlara tabe etdirilib.

Azərbaycan gömrüyünün inkişafında Heydər Əliyevin müstəsna rolu olub. Dövlət Gömrük Komitəsi dövlət müstəqilliyimizin bərpasından cəmi üç ay sonra - 1992-ci il yanvarın 30-da yaradılıb.

Lakin həmin illərdə Dövlət Gömrük Komitəsi yaradılsa da, mürəkkəb ictimai-siyasi vəziyyət gömrük orqanlarının formalaşmasına imkan vermədi. Naxçıvan MR Ali Məclisinin sədri olmuş Heydər Əliyevin 24 fevral 1992-ci il tarixli qərarı ilə Naxçıvan MR Dövlət Gömrük Komitəsinin yaradılması və əsl milli gömrük xidmətinin formalaşdırılması sahəsində görülən tədbirlər isə nəinki Naxçıvanı düşdüyü blokada vəziyyətindən çıxarmaq və yerli iqtisadiyyatı möhkəmlətmək üçün imkan yaratdı, eləcə də bütün Azərbaycanda siyasi münasibətlərə əhəmiyyətli təsir göstərmiş oldu.

1995-ci il yanvarın 9-da Azərbaycan Prezidentinin yanında gömrük işinin təşkilinə həsr olunmuş müşavirə respublikada gömrük xidmətinin yenidən qurulması, inkişafının əsas istiqamətləri və prinsiplərini müəyyən etdi. Azərbaycan Prezidentinin 10 yanvar 1997-ci il tarixli Sərəncamı ilə yanvarın 30-nun gömrük əməkdaşlarının peşə bayramı günü elan edilməsi də Heydər Əliyevin bu orqanın fəaliyyətinə verdiyi çox yüksək dəyərin əyani nümunəsi idi.




Qanunvericilik bazasının təkmilləşdirilməsi sahəsində ilk olaraq Azərbaycan Respublikası Gömrük Məcəlləsinin hazırlanmasına başlanıldı. Komitənin mütəxəssisləri və beynəlxalq ekspertlərin iştirakı ilə hazırlanan Gömrük Məcəlləsi 10 iyun 1997-ci il tarixində qəbul edildi. Bu məcəllədə o dövr üçün Azərbaycan Respublikasının çağırışlarına cavab verən müddəalar öz əksini tapdı. Eyni zamanda, məcəllənin tətbiqi ilə əlaqədar Dövlət Gömrük Komitəsi tərəfindən gömrük nəzarətinin təşkilində xüsusi əhəmiyyətə malik bir sıra qaydalar hazırlandı və onların icrası reallaşdırıldı.

Lakin ölkənin iqtisadi potensialı gücləndikcə və xarici ticarət əlaqələri genişləndikcə, gömrük orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə ehtiyac yarandı. Milli iqtisadiyyatın inkişafı zəminində yaranan yeni tələblər, beynəlxalq iqtisadi inteqrasiya və qloballaşma proseslərinin gücləndiyi dövrdə gündəmə gələn beynəlxalq normaların tətbiqi zərurəti ilə 2008-ci ildə yeni Gömrük Məcəlləsi layihəsinin hazırlanması işinə başlanıldı.

Sözügedən Gömrük Məcəlləsinin layihəsi Dövlət Gömrük Komitəsində Avropa İttifaqı və Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramının birgə həyata keçirdiyi "Azərbaycan Respublikasında Gömrük Xidmətinin təkmilləşdirilməsi" layihəsi çərçivəsində hazırlandı və 24 iyun 2011-ci ildə qəbul edildi.

Yeni Gömrük Məcəlləsi daha təkmil formaya malik olmaqla, yeni normalarla zənginləşdirildi və onun əsas fəlsəfəsi ticarətin sadələşdirilməsi və ona dəstək, elektron gömrük bəyannamələrinin verilməsi və s. istiqamətdə quruldu. Beynəlxalq standartlara cavab verən yeni Gömrük Məcəlləsi 1 yanvar 2012-ci ildə qüvvəyə mindikdən sonra Dövlət Gömrük Komitəsi tərəfindən yeni normativ-hüquqi sənədlər hazırlandı və müvafiq qərarlarla təsdiq edildi.

2016-cı ildə ölkəmizdə aparılan dərin islahatlar gömrük sistemində də müsbət dəyişikliklərə səbəb olub. Gömrük sistemində həyata keçirilən son islahatlar nəticəsində dövlət sərhədinin buraxılış məntəqələrinin buraxılış qabiliyyətini artırmaq və vətəndaşların rahatlığını təmin etmək üçün malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipi daha da təkmilləşdirilib.

Həmçinin, ticari-iqtisadi münasibətlərdə idxal-ixrac əməliyyatlarının rəsmiləşdirilməsinin sadələşdirilməsi, bütün istiqamətlərdə gömrük işinin beynəlxalq standartlara uyğun aparılması, normativ-hüquqi bazanın yaradılması, ticarətin asanlaşdırılması, gömrük sərhədindən mal dövriyyəsinin sürətləndirilməsi, ölkədə sahibkarlığın inkişafında və biznes mühitinin formalaşmasında, iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsində gömrük sisteminin rolunun daha da artırılması üçün bir sıra məqsədyönlü işlər görülüb.

"Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 4 mart 2016-cı il tarixli Sərəncamına əsasən, idxal-ixrac əməliyyatlarının aparılmasında şəffaflığın tam təmin olunması, idxal olunan malların gömrük rəsmiləşdirilməsinin asanlaşdırılması, məmur-vətəndaş təmasının minimuma endirilməsi, bütün bəyannamələrin gömrük orqanlarında elektron formada qəbulu, gömrük nəzarətinin səmərəliliyini artırmaq məqsədilə gömrük sistemində müasir texnologiya və avadanlıqlardan istifadə etməklə, gömrük işi sahəsində risqlərin avtomatlaşdırılmış idarəetmə sisteminin təkmilləşdirilməsi, malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və beynəlxalq təcrübədə mövcud olan digər buraxılış sisteminin yaradılması ilə əlaqədar tapşırıqlar icra edilib.

Azərbaycan gömrüyünün daha da təkmilləşdirilməsi işi ilə yanaşı, gömrük orqanlarının fəaliyyəti də ölkə rəhbərliyi tərəfindən daim diqqətdə saxlanır və qiymətləndirilir. Azərbaycan Prezidentinin 27 yanvar 2017-ci il tarixli müvafiq sərəncamları əsasında gömrük əməkdaşlarının ali xüsusi rütbələrə, orden və medallara, fəxri adlara layiq görülməsi, bütövlükdə, gömrükçülərə, gömrük işinə göstərilən yüksək diqqət və qayğının bariz nümunəsidir. O cümlədən, peşə bayramı ərəfəsində Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə Azərbaycan Prezidentinin imzaladığı 24 yanvar 2017-ci il tarixli Fərmanı da deyilənləri bir daha təsdiqləyir. Qeyd edək ki, Azərbaycan Gömrük Xidməti əməkdaşları gələcəkdə də ölkənin iqtisadi qüdrətinin artırılmasında, dövlət başçısının həyata keçirdiyi siyasi kursun reallaşmasında, eləcə də büdcə öhdəliyinə dair tapşırıqlar üzrə öhdəsinə düşən vəzifələrin uğurla yerinə yetirilməsi üçün qüvvə və bacarığını əsirgəməyəcəklərini bəyan edirlər.

Hazırda Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyevin rəhbərliyi ilə bu sahə inkişafa doğru gedir. Bu istiqamətdə baş verən inkişaf və yeniliklər diqqətdən yayınmır. Gömrük Komitəsinin rəhbəri dəfələrlə bəyan edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin uğurla davam etdirdiyi siyasətin nəticəsi olaraq, gömrük orqanlarında islahatların aparılması istiqamətində mühüm işlər görülür. Gömrük orqanlarında həyata keçirilən islahatlar ölkənin iqtisadi təhlükəsizliyini təmin etməklə yanaşı, sahibkarlıq mühitinin yaxşılaşdırılması və biznes mühitinin inkişafına da töhfəsini verir. Gömrük orqanlarının fəaliyyətinin yeni fəlsəfəsi formalaşdırılır, sahibkarlıq subyektləri ilə səmərəli dialoq qurulur, şəffaflıq təmin edilir, gömrük prosedurları sadələşdirilir, qanunvericilik bazası ardıcıl olaraq təkmilləşdirilir. Onu da vurğulayaq ki, bu sahədə struktur və kadr islahatları da həyata keçirilir və bunun nəticəsində bu istiqamət inkişaf edir. Onu da vurğulayaq ki, komitənin strukturuna daxil olan sərhəd və təyinat gömrük idarələrinin bazasında 5 baş idarə, komitənin aparatında yeni baş İdarələr və idarələr yaradılıb.

Belə ki, Azərbaycan Respublikası Prezidentinin 13 iyul 2018-ci il tarixli Fərmanının müvafiq bəndlərinin icrasını təmin etmək məqsədilə Dövlət Gömrük Komitəsinin Gəncə, Tovuz, Balakən, Yevlax gömrük idarələrinin bazasında Qərb Ərazi Baş Gömrük İdarəsi, Astara, Biləsuvar, Şirvan, Xudafərin gömrük idarələrinin bazasında Cənub Ərazi Baş Gömrük İdarəsi, Xaçmaz Gömrük İdarəsinin bazasında Şimal Ərazi Baş Gömrük İdarəsi, Enerji Gömrük İdarəsi və Xəzər Dənizində Azərbaycan Respublikasının İqtisadi Mənafelərinin Mühafizəsi Gömrük İdarəsinin bazasında Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsi, Avtonəqliyyat Baş Gömrük İdarəsi və Aksiz Baş Gömrük İdarəsinin bazasında Aksizli Mallar üzrə Baş Gömrük İdarəsi yaradılıb.

Dövlətimiz, xalqımız üçün böyük önəm daşıyan və ölkəmizin iqtisadi təhlükəsizliyini daim qoruyan gömrük orqanlarının hər zaman uğurlu fəaliyyətinin şahidi olacağımıza ümid edirik.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi birgə müsabiqəyə təqdim edilir.**

# Bakı supermarketlərində erməni istehsallı şokolad?...

**Sosial şəbəkələrdə marketlərin birində Ermənistan istehsalı olan konfetlərin satılması barəsində foto paylaşılıb. "Xətai" metrosunun yaxınlığında, "Freshmart" supermarketində piştaxtada İrəvanda istehsal olunan şokoladlara rast gəlinib. Vətəndaş bununla bağlı mağazanın rəhbərliyinə irad tutub.**

*"Azərbaycanın əmtəə bazarında bir malın üzərində erməni dilində yazılıb, Azərbaycan dilində heç bir cümlə yoxdursa, bu o deməkdir ki..."*

## *Eyyub Hüseynov: "Başqa dildə olan məhsulların Azərbaycan bazarında satılması insanlarımız üçün təhlükəlidir"*



Onlar həmin şokoladları mağazadan yığışdıracaqlarını deyiblər. Lakin bir gün sonra vətəndaş yenə həmin mağazaya gedib. Dediyinə görə, həmin İrəvan istehsallı şokoladların yerinə eyni firmanın Moskva istehsallı şokoladları qoyulub. Lakin diqqətlə baxıldıqda aralarında hələ də erməni mallarını tapmaq olur.

Marketdə satılan erməni konfetləri ilə bağlı fikir bildirən Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirdi ki, ölkədəki müxtəlif mağazalara çoxsaylı təhlükəli mal gəlir: "Çox təəssüf ki, bu barədə müvafiq qurumlara dəfələrlə məlumat versəm də, məhəl qoyan yoxdur".

Həmsöhbətimiz onu da əlavə etdi ki, "Yeyinti məhsulu haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanunlara görə, ölkənin əmtəə bazarında satılan bütün mallar xarici dillə yanaşı, Azərbaycan dilində də markalanmalıdır. Azərbaycanın əmtəə bazarında bir malın üzərində erməni dilində yazılıb, Azərbaycan dilində heç bir cümlə yoxdursa, bu o deməkdir ki, mal Ermənistan üçün istehsal edilib və Azərbaycana daxil olmamalıdır: "Yaxın qonşularımızın hamısında bu qanun var və onların əmtəə bazarına milli dildə markalanmayan heç bir mal daxil olmur. Azərbaycanda isə belə deyil. Ümumilikdə, malların təxminən 50 faizi milli dildə markalanmadan ölkə bazarına daxil olur. Malın üzərində bir neçə xarici dil və o cümlədən də erməni dilində informasiya yazılıb, lakin Azərbaycan dilində məlumat yazılmayıbsa, mal ölkənin əmtəə bazarından çıxarılmalıdır. Malın üzərində həm erməni, həm də Azərbaycan dilində yazı varsa, deməli, bu, tamamilə qanunidir. Başqa dildə olan məhsulların Azərbaycan bazarında satılması insanlarımız üçün təhlükəlidir. Bizim düşmənimiz olan ermənilər dünyanın hər yerində yaşayırlar. Onlar bilərəkdən bu məhsulun tərkibini dəyişməklə, ölkədə ciddi problem yarada bilərlər. Ona görə də məsələyə ciddi yanaşmaq lazımdır".

**Günel CƏLİLOVA**

# Restoranlar toy vergisindən yayınmağın üsulunu tapdılar - Toy sahibləri ilə icarə müqaviləsi...

**2020-ci ildən şadlıq evlərinin fəaliyyətini təmin etmək məqsədilə cəlb olunan ofisiantlar tərəfindən "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi haqqında qəbz" alınmazsa, onların işə cəlb edilməsinə görə maliyyə sanksiyası tətbiq edilə bilər.**



## *Fuad İbrahimli: "Gəlir əldə edən istənilən sənət sahibinin vergi ödəməsi tamamilə qanunidir"*

Vergi Məcəlləsində 1 yanvar 2020-ci il tarixdən qüvvəyə minmiş dəyişikliyə əsasən, iaşə obyektlərində müştərilərə xidmət göstərən fiziki şəxslərlə (ofisiantlarla) əmək müqaviləsi bağlandığı hallar istisna olmaqla, həmin şəxslərin fəaliyyətə başlayanadək "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi haqqında qəbz" əldə edilmədən işlərin yerinə yetirilməsinə cəlb olunmasına görə işəgötürənə (vergi orqanında uçotda olan sifarişçiyə) hər bir belə şəxs üzrə təqvim ili ərzində belə hala birinci dəfə yol verildikdə 2.000 manat, ikinci dəfə yol verildikdə 4.000 manat, üç və daha çox dəfə yol verildikdə 6.000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Ancaq şadlıq evlərinin bəzisi vergidən yayınmağın yollarını tapıb. Belə ki, şadlıq evlərinin sahibləri müqaviləsiz və ya qəzb almamış ofisiantları işə cəlb etməyin yolunu müəyyən ediblər. Şadlıq evi bir toyun keçirilməsi üçün toy sahibinə (vergidə uçotda olmayan sifarişçiyə) icarəyə verilir. Şadlıq evi ilə toy sahibi arasında icarə müqaviləsi bağlanır. Şadlıq evini birgünlük icarəyə götürən toy sahibi ofisiantları, aşpazları, musiqiçiləri də özü cəlb edir. "Cəlb edir" dedikdə, əksər hallarda həmin şəxslər şadlıq evi ilə əməkdaşlıq edən ofisiantlar, aşpazlar və musiqiçilər olurlar. Danışığa və icarə müqaviləsinə əsasən, onlar şadlıq evi tərəfindən deyil, toy sahibi tərəfindən işə cəlb edilirlər. Təbii ki, toy sahibi vergi ödəyicisi deyil, vətəndaşın bir toya görə VÖEN alması da düzgün olmaz. Vergi işçiləri yoxlama apararaq qəbz almayan ofisiantların işə cəlb edildiyini müəyyən etdikdə şadlıq evinə sanksiya tətbiq edə bilməyəcəklər. Bu zaman şadlıq evləri icarə müqaviləsini vergi işçilərinə təqdim edəcək və ofisiantların işə icarədar tərəfindən cəlb edildiyini bildirəcəklər. Toy sahibi isə vergi ödəyicisi, yəni uçotda olan sifarişçi olmadığından, onu məsuliyyətə cəlb etmək mümkün deyil. Beləliklə, vergi orqanı sadələşdirilmiş vergi üzrə sabit məbləğ və məcburi dövlət sosial sığorta haqq üzrə hədəflərinə nail olmaya bilər.

Onu da bildirək ki, rayonlarda şadlıq evlərinin toy sahibinə icarə verilməsi təcrübəsi çoxdan mövcuddur. Əksər toy sahibi lazım olan qidaları özü alır, aşpazları, ofisiantları və musiqiçiləri özü cəlb edir. İndi bu təcrübəni kağız üzərində bütün Azərbaycandakı şadlıq evlərinin tətbiq edəcəyi istisna olunmur.

*"Şadlıq evlərinin vergidən yayınmaq üçün toy sahibi ilə öz arasında razılığa gəlməsi uzun sürməyəcək"*

İqtisadçı-ekspert Fuad İbrahimli bildirdi ki, istənilən müğənni olsun və ya digər sənət sahibləri olsun, onlar Azərbaycan vətəndaşıdırsa, bu ərazidə çalışırsa, müəyyən gəlir əldə edirsə, o gəlirdən vergi verməlidir: "Gəlir əldə edən istənilən sənət sahibinin vergi ödəməsi tamamilə qanunidir. İstər iaşə obyektinin sahibi və ya gəlir əldə edən ofisiant, müğənni vergidən yayınırsa, həmin şəxs qanunun tələbinə əsasən inzibati qaydada cəzalandırılmalıdır".

Həmsöhbətimiz hesab edir ki, şadlıq evlərinin vergidən yayınmaq üçün toy sahibi ilə öz arasında razılığa gəlməsi uzun sürməyəcək: "Məsul şəxslər bir müddət restoranlarda monitorinq keçirsələr, görəcəklər ki, hansısa restoranda elə eyni ofisiantlar çalışır, eyni müğənnilər oxuyur. Çünki toy sahibi yalnız özünə aid olan məclisə ofisiant və müğənni gətirə bilər. Restoranda keçirilən digər məclislərə də ofisiant və ya müğənni dəvət etmək onun marağında olmayacaq. Rayonlarda isə toy sahibi, sadəcə, şadlıq evinin binasını və mətbəxini icarəyə götürür. Toy sahibi özü masaya təqdim ediləcək təamları bişirtdirərək gətirir".

**Günel CƏLİLOVA**

# Bərpa edilmiş tarixi abidələrdə mütəxəssisləri narazı salan məqamlar - iradlar nə qədər əsaslıdır...

**Azərbaycanda mövcud olan tarixi abidələr tariximizin qədimliyinin və zənginliyinin göstəricisidir. Ölkəmizdə tarixin müxtəlif dövrlərinə aid abidələrin sayı həddən artıq çoxdur. Amma təəssüf ki, bu abidələrin heç də hamısı qeydiyyata alınmayıb. Başlıca problem isə qeydiyyata alınan və restavrasiya edilən abidələrimizlə bağlıdır.**

Son dövrlər ölkəmizdə abidələrin bərpası həyata keçirilir. Çox təəssüflər olsun ki, bir çox halda qədim və orta əsr abidələri restavrasiya edildikdən sonra onun "avrotəmir" edildiyinin şahidi oluruq. Uzağa getməyək, gözümüzün qarşısında Şirvanşahlar Sarayı "avrotəmir" edilib, yəni burada həmin dövrə aid materiallar işlənməyib. Bu abidədə də qədimlik yox, müasirlik, orta əsr dünyasının ab-havası deyil, bugünkü atmosfer, ruh özünü göstərir.

Bir çox mütəxəssis hesab edir ki, Azərbaycanda restavrasiya edilən abidələrin əksəriyyəti bərpa standartlarına uyğun gəlmir. Əlbəttə, bu da səbəbsiz deyil. Bir sıra arxeoloq və tarixçilər hesab edirlər ki, bu gün ölkəmizdə restavrasiya edilən abidələrin böyük əksəriyyətinə naşı yanaşma var.

Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Akif Məmmədli də mətbuata bildirib ki, restavrasiya olunmuş abidələrin vəziyyəti çox pisdir. O iddia edib ki, adını restavrasiya qoyub abidənin tarixini siliblər.

Qeyd edilənə görə, restavrasiya köhnəlmiş və ya zədələnmiş memarlıq abidəsinin, incəsənət əsərinin və sairin ilkin formasına uyğun olaraq yenilənməsi deməkdir. Başqa sözlə, restavrasiya köhnə, tarixi, hər hansı hadisəyə şahid olmuş əsərin, əslinə uyğun olaraq, elə özünün materialı və inşa texnikası ilə ən az dərəcədə müdaxiləyə məruz qoyaraq yenilənməsidir.

Ekspert vurğulayıb ki, ölkəmizdə hər il uçulub-tökülməkdə olan abidələrimizin restavrasiyası üçün müəyyən məbləğdə pul ayrılır. 2000-ci illərdən bu yana Azərbaycanda 60-a yaxın abidə restavrasiya olunub.

A.Məmmədli qeyd edib ki, Qax rayonunun İlisu kəndində yerləşən, bir növ, İlisunun simvolu olan Sumuq qalada aparılan restavrasiya işləri qənaətbəxş deyil. XVIII əsrə aid olan qalada Azərbaycanda, eləcə də keçmiş Sovet respublikalarında məşhur olan, Yuli Qusmanın rejissoru olduğu "Qorxma, mən səninləyəm" filmi çəkilib. Bu gün filmdə gördüyümüz o abidədən əsər-əlamət qalmayıb desək, yanılmarıq.

A.Məmmədli "yayda Türkiyədən qonağım gəlmişdi. İlisuya heyran qaldı. Oranın təbiətinə, orada yerləşən abidələrə... Baxmayaraq ki, həmin abidələrin çoxu bu dəqiqə baxımsız durumdadır. Amma mən onu İlisunun rəmzi sayılan Sumuq qalaya apara bilmədim, utandım, bir növ, xəcalət çəkdim. Bu gün o abidəyə baxa bilmirəm. Adını restavrasiya qoyub, abidənin tarixini siliblər. Mən qonağı oraya necə aparım? Qala sanki yaxın zamanlarda tikilib" - deyə bildirib.

Bundan başqa, ekspert qeyd edib ki, restavrasiya güdazına gedənlər sırasına Naxçıvanda yerləşən Əlincə qalasını, paytaxt Bakıda və digər bölgələrimizdə yerləşən bir çox abidəni də daxil etmək olar. "Necə düşünürsünüz, bunun qarşısını necə ala bilərik" sualına tarixçinin cavabı belə olub: "Biz bir vətəndaş mövqeyi ortaya qoymalıyıq. KİV, tarixçilər və vətənini sevən insanlar bu işdə həmrəy olmalıyıq ki, bu işə yad olan insanlar cəlb olunmasınlar. Başda dövlət və Mədəniyyət Nazirliyi bu məsələdə son dərəcədə diqqətli olmalıdır. Əks halda, digər abidələrimiz də restavrasiyanın qurbanına çevriləcək. Balakəndə V əsrdə tikilmiş, Qafqazın ən böyük səddi olan 120 km uzunluqdakı abidənin bərpası ilə bağlı Mədəniyyət naziri ilə 2 dəfə görüşdüm. Memarlar gəlib, abidəyə baxış keçirdilər. Amma restavrasiya məsələsi üç ildir dayanıb. Heç bir metr yeri də restavrasiya olunmadı. Mən belə başa düşürəm ki, həmin abidəyə də tarixdən anlayışı olmayanları göndərəcəklər, elə bərpa olunacaqsa, heç olmasın. Heç olmasa, olduğu kimi qalsın".



***Fariz Xəlilli:*** *"Həqiqətən də tarixi abidələrin bərpası sahəsində problemlər var"*

***Telman Kərimli:*** *"Nazirliyin icazəsi olmadan həyata keçirilən bərpa işləri zamanı nöqsanlar ola bilər və bununla bağlı məlumat olursa, dərhal bu işin qarşısı alınır"*

Ekspert təklif edib ki, Azərbaycanda tarixi abidələr restavrasiya edilərkən onlara xüsusi münasibət olmalıdır. Bu həm də ölkəmizdə turizm sektorunun inkişafına təkan olar.

MİRAS İctimai Birliyinin sədri, tarix üzrə fəlsəfə doktoru Fariz Xəlilli "Bakı-Xəbər"ə bildirdi ki, həqiqətən də bu sahədə ciddi problemlər var. "Həqiqətən də tarixi abidələrin bərpası sahəsində problemlər var. Bunlar özünü bir sıra məqamlarda göstərir. Birincisi, kadr çatışmazlığında. Daha doğrusu, kadrların hazırlığında problem müşahidə edilir. Memarlıq abidələrinin bərpası ilə bağlı ixtisaslı mütəxəssislər azdır. Demək olar ki, onlar əsasən uyğun ixtisasa deyil, oxşar ixtisaslara sahibdirlər, onların çoxu ya davam etdirmirlər, ya da işləməyə yer tapa bilmirlər. Yəni abidələrin bərpası məsələsi adi inşaat məsələlərindən fərqlənməlidir. Tarixi, memarlıq abidələrinin bərpası işini əsasən adi inşaatla bağlı adamlar gördüyü üçün, bu cür problemlər yaşanır".

Abidələrin restavrasiyasında müasir inşaat materiallarından istifadə edilməsinə də münasibət bildirən F.Xəlilli qeyd etdi ki, vaxtilə tarixi abidələrin tikintisində istifadə edilən materialları indi tapmaq çətindir, həmin materiallar burada yoxdur: "Biz bir neçə dəfə ən məşhur şirkətlərin istehsal etdiyi və abidələrin bərpasında istifadə edilən məhsullara internetdə baxmışıq. Həmin şirkətlərin buradakı distribütorlarına müraciət edirik, "yoxdur" deyirlər. İndi ən çox istifadə edilən qrasella İtaliyada istehsal olunan məhluldur, bərpa işində istifadə olunur. Amma tarixi abidələrin bərpasında istifadə edilən məhsullar Azərbaycanda yoxdur, gətirilmir. Biz gətirdikdə isə gömrükdə maneələr olur. Baxmayaraq ki, onlara biz bu materialları tədris məqsədilə gətirdiyimizi deyirik, vergi ilə də bağlı problem çıxdı. Xaricdən ucuz qiymətə aldığımız məhsul burada çox baha qiymətə başa gəldi və sonradan biz o məhsulu gətirmədik. Tarixi abidələrin bərpası məsələsində kadr, material problemi var, eyni zamanda da insanların özünün bu prosesi anlamasında problem az deyil. Tarixi memarlıq abidələrinə münasibətdə istər inşaat işləri görən şirkətlər, istərsə də orada işləyənlər daha çox qayğıkeş olmalıdırlar. Amma onlar barmaqarası yanaşırlar. Abidənin bərpasında sementdən istifadə edirlər. Daha demirlər ki, onun tərkibində duz var, sabah bu, təbiətdəki suyu canına çəkib binanı aşındırıb məhv edəcək. Bu məsələlərə diqqət edənlər yoxdur. Ona görə də bu sahədə problemlər var. Dövlət Xidmətinin də o qədər çox kadrı, əməkdaşı yoxdur ki, hər yerə nəzarət edə bilsin. Bu işə mütləq ictimai nəzarət və ictimai qınaq olmalıdır. İnsanlar hansısa bərpaçı şirkətin işində nöqsan görsə, mütləq o barədə aidiyyəti quruma müraciət etməlidirlər" - deyə F.Xəlilli bildirdi.

"Azərbərpa" Elmi-Tədqiqat Layihə İnstitutunun təmsilçisi, memarlıq üzrə fəlsəfə doktoru, Əməkdar mühəndis Telman Kərimli isə "Bakı-Xəbər"ə bildirdi ki, təmsil etdiyi təşkilatın xətti ilə bərpa edilən abidələrlə bağlı heç bir problem yaşanmır, əsas problem Dövlət Xidmətindən və "Azərbərpa"dan xəbərsiz həyata keçirilən restavrasiya işləri zamanı baş verə bilir: "Əslində, bərpa edilən obyektlərdə ilkin olaraq tədqiqat işləri aparılır, onun əsasında da layihə sənədləri hazırlanır. Amma araşdırma, tədqiqat işləri aparılmadan, layihələndirilmədən bərpa işləri aparılırsa, sözsüz ki, orada nöqsanlar olur. Tədqiqat işləri aparıldıqdan sonra tərtib edilən layihə əsasında bərpa işləri aparılırsa, nazirliyin Dövlət Xidmətində təsdiqlənirsə, biz çalışırıq ki, heç bir nöqsan olmasın. Belə hallar çox vaxt rayonlarda olur. Hansısa bir fiziki şəxs, yaxud təşkilat tərəfindən bizdən xəbərsiz bərpa işləri aparılarkən nöqsan müşahidə edildikdə bu halın qarşısını təxirə salmadan alırıq".

Nazirliyin nəzdindəki Dövlət Xidmətindən xəbərsiz yerlərdə bərpa işləri necə aparıla bilər?

T.Kərimli qeyd etdi ki, bu çox zaman təsadüfən baş verir, yeni bərpa işini aparan adam, təşkilat bunun tarixi abidə olmasından xəbərsiz olur: "Tutalım, bir məsciddə bərpa işləri aparırlar, amma həmin məscidin tarixi abidə olduğunu bilmirlər. Məlumat bizə çatanda gedib görürük ki, burada xeyli iş görülüb, onun qarşısını alırıq. Yaxud da hansısa sahibkar bir ərazini özəlləşdirib, buradakı abidə də onun şəxsi mülkiyyətinə daxil olub. Tədqiqat işləri aparılmadan, layihə tərtib edilmədən bizdən xəbərsiz orada bərpa işləri aparılır. Biz hadisə yerinə gedib onlara qaydaları izah edirik. Belə hallar olur. Biz isə həmişə onlardan tələb edirik ki, layihə olsun və bərpa işləri layihə əsasında aparılsın. Bərpa işləri də mütəxəssislər tərəfindən aparılmalıdır. Nazirliyin icazəsi olmadan həyata keçirilən bərpa işləri zamanı nöqsanlar ola bilər və bununla bağlı məlumat olursa, dərhal bu işin qarşısı alınır" - deyə T.Kərimli bildirdi.

***İradə SARIYEVA***

№ 5 (4136) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

14 YANVAR 2020-ci il

www.baki-xeber.com



# Özbəkistan şəhəri dünyanın ən dəhşətli yeri adlandırıldı

**Aral dənizi yaxınlığındakı Muynak şəhəri dünyanın ən dəhşətli yeri adlandırılıb.**

"AZƏRTAC" bildirir ki, Özbəkistanın Qaraqalpaq Respublikasında yerləşən, "Gəmilər qəbiristanlığı" adını alan Muynak şəhəri "Fox News" jurnalının "Dünyanın ən dəhşətli yerləri" siyahısına düşüb. Keçən əsrin 70-80-ci illərinə qədər Muynak Aral sahillərində liman şəhəri kimi tanınıb. Aralın quruması isə ekoloji və iqtisadi fəlakətə çevrilib. Bu gün dənizin 90 faizi quruyub, suyun dibi isə pas atmış gəmilərin quma batdığı səhraya çevrilib. Xatırladaq ki, Aral 1960-cı ildə dünyada sahəsinə görə dördüncü göl sayılıb. Son 40 ildə onun sahəsi 2-3 dəfə kiçilib, suyun səviyyəsi 18 metr aşağı düşüb. Suyun duzluluğu artdığına görə balıq ehtiyatları tamamilə tükənib. Güclü külək qumu sovuraraq uzaq yaşayış məntəqələrinə qədər aparıb və beləcə, ekoloji fəlakət zonası yaranıb.

## Keniya hökuməti çəyirtkələrlə mübarizənin yeni üsulunu tapdı - əhaliyə çəyirtkələri yemək tövsiyə edildi

**Keniya hökuməti əkin sahələrinə yayılan çəyirtkələrlə mübarizədə qeyri-adi üsul seçib. "AZƏRTAC" bildirir ki, Keniya dövləti əhaliyə əkin sahələrində artan çəyirtkələri yeməyi tövsiyə edib.**

"The Daily Nation" nəşri bildirib ki, Keniya hökumətinin bu çağırışından sonra çəyirtkələr əhalinin dadlı qidasına çevriləcək. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının məsələ ilə bağlı açıqlamasında bildirilib ki, həmin coğrafiyada yaşayan insanların qəbul etdiyi qida rasionunda çəyirtkə də yer alır. Keniya Kənd Təsərrüfatı və Heyvandarlıq Təşkilatının direktoru fermerlərə çəyirtkədən ləzzətli yeməklər hazırlamağı tövsiyə edib. Eyni zamanda, vurğulanıb ki, çəyirtkədən qida kimi istifadə edən insanlarda infarkt riski azalır. Xatırladaq ki, çəyirtkə sürüləri Keniyada hər gün 150 kvadratkilometrdən artıq əkin sahəsini məhv edir.

## Xoruldunun əsl səbəbi tapıldı - Professordan xəbərdarlıq

**ABŞ-ın Filadelfiya şəhərində yerləşən Perelman tibb fakültəsində xoruldunun səbəblərini tapmaq üçün araşdırma aparılıb.**

"Milli.Az" xəbər verir ki, tədqiqat nəticəsində dildəki yağ kütləsinin yuxunun keyfiyyətinə təsir göstərdiyi və xoruldunun səbəb olduğu üzə çıxıb. Fakültənin professoru Riçard Şvab araşdırma zamanı xəstələrin sağlamlıq vəziyyətini və çəkilərini nəzərə alıb. Məlum olub ki, artıq çəkidən xilas olan insanlar xoruldu ilə daha az qarşılaşır. Professor açıqlamasında bu ifadələrə yer verib: "Dilimizlə danışır, yemək yeyir və nəfəs alırıq. O zaman niyə burada yağ toplanır? Yağın burada toplanmasının səbəbi dəqiq deyil, genetik də ola bilər, ətraf mühitin təsirlərindən də. Amma dildə yağın miqdarı nə qədər azdırsa, yuxunun keyfiyyəti də bir o qədər yaxşılaşır".

## İnsan haqqında maraqlı faktlar

**1. Yorğunluq hissi real imkanların 35-65% -nin istifadəsi zaman baş verir. 2. Böyük insanda tam qan dövranı 20-28 saniyəyə, uşaqda 15 saniyəyə, yetkinlərdə 18 saniyəyə baş verir.**

Sutka ərzində qan bədən üzrə 1.5-2 min dəfə dövr edir. 3. İnsan dərisinin 1 kubmillimetrində 40 kapilyar, əzələlərdə 2500 kapilyar, ürək əzələsində 4000 kapilyar mövcuddur. 4. İnsan orqanizminin gün ərzində ayırdığı isti 33 litr buzlu suyu qaynama səviyyəsinə çatdıra bilir. 5. 3000 il yaşı olan Misir mumiyalarının əl izləri qorunub saxlanıb. 6. İnsan orqanizmində yaşayan bütün bakteriyaları 3 çay qaşığına yerləşdirmək olar. 7. İnsana 2 həftə yatmağa imkan verilməsə, ölər. 8. Bir damla qanda 250 000 000 qan cisimləri mövcuddur. 9. İnsan (kişi) ömür boyu saqqalını qırxmasa, onun uzunluğu 9 metr təşkil edər. 10. Asqırma zamanı ürək döyüntüsü dayanır. Əgər insan dalbadal bir müddət asqırsa, infarkt ola bilər. 11. İl ərzində insanda ağlamasa belə, 4.5 litr göz yaşı əmələ gəlir. 12. İnsan dərisi 27 günə təmamilə dəyişir, bütün ömür boyu isə 1000 dəfəyə qədər dəyişir. 13. Bir dəqiqəyə dəridən 460 millilitr qan keçir. 14. Bir dəqiqə ərzində insan beynindən 740-750 millilitr qan keçir.

## Elan

Şəki şəhər sakini Abdullayev Şükür Kaman oğlunun adına verilmiş 248/187 saylı qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Əsgərov Tofiq Surxay oğlunun adına, Bakı şəhəri, Xətai rayonu, Qacaq Nəbi küçəsi, ev 12, mənzil 11 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Abdullayeva Leyla Nazir qızının adına, Xəzər rayonu, Mərdəkan qəsəbəsində yerləşən bağ sahəsinə 09 dekabr 2002-ci il tarixdə verilmiş müqavilə N28696 itdiyi üçün etibarsız sayılır.

Talışxanova Zemfira İbrahim qızının adına, Bakı şəhəri, 08 saylı Binəqədi birinci seçki dairəsi, 21 saylı seçki məntəqəsində məntəqə seçki komissiyasının üzvünün 21/3 nömrəli vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Rzayeva Almaz Xanlar qızının adına, Abşeron rayonu, Xırdalan şəhəri, məhəllə 22, mənzil 40 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Cəfərov Fariz Cəmil oğlunun adına, Bakı şəhəri, Nizami rayonu, Bəhruz Nuriyev küçəsi 11, mənzil 42 ünvanına verilmiş çıxarış (kupça), texniki pasport, order itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Dəyərli əşyaların itirilməsi, yaxud havayı yerə xərclər mümkündür. İstənilən məsələni, xüsusilə iş və ya biznesə aid problemləri öz cinsinizdən olan insanlarla müzakirə etməyə çalışın.



**Buğa** - Bütün gün ərzindən mənfi tendensiyaların təsirini hiss edəcəksiniz. Ancaq yaxşıca düşünülmüş ehtiyatlı hərəkətlər istədiyiniz nəticəni əldə etməyinizə imkan verər.



**Əkizlər** - Şəxsi münasibətlərdəki ahəngdarlığa isə yağışdan sonra göbələk kimi artan illüziyalar mane olur. Nə qədər çox fantaziyaya qapılsanız, reallığa qayıtmaq bir o qədər çətin olacaq.



**Xərçəng** - Elə bir gündür ki, hətta ən qapalı adamlar ünsiyyətə meyl edirlər, hiyləgərlər isə bir müddətlik doğruçul və dürüst olurlar. Özünə inam, inadcıllıq, əzmkarlıq nümayiş etdirənlər danışıqlarda uğur qazanacaqlar.



**Şir** - Günün əvvəlində pis xəbər ala bilərsiniz, şərait çox gərgin olacaq. Ətrafınızdakılar istəmədiyiniz halda məsləhətlər verir, eşitmək istəmədiyiniz mülahizələr söyləyirlər.



**Qız** - Ötən həftənin problemlərini uğurla həll edir və yeni planların reallaşdırılmasına başlayırsınız. Özünüzə tərəfdaş və həmfikir tapmaq elə də çətin deyil, həmçinin onlarla işləmək də xoş olacaq.



**Tərəzi** - Şəxsi münasibətlərdə isə vəziyyət bir qədər başqadır. İstənilən məsələyə praqmatik yanaşmağınız yaxınlarınızı təəccübləndirir və qıcıqlandırır. Ətrafınızdakıların həyəcanları sizi qətiyyən maraqlandırmır, istəmədən qəddarlıq edirsiniz.



**Əqrəb** - Maraqlandığınız adamlarla ünsiyyət qurmaq istəyirsinizsə, axşama doğru onları başınıza toplayın. Həm evinizdə qonaq qəbul edə, həm də özünüz kimisə evinə qonaq getməklə sevindirə bilərsiniz.



**Oxatan** - Qəti addımlar atmaq, möhtəşəm hərəkətlər etmək həvəsi hər dəqiqə artır. Ehtiyat nədənsə yaddan çıxır, bu səbəbdən travma almaq və pis vəziyyətlərə düşmək riski artır. Bir çoxları, hətta ən ciddilər belə, yüngüllüyə meyl edirlər.



**Oğlaq** - Xoş və maraqlı gündür. Bu ərəfədə başlanan xoş hadisələr davam etməkdədir. Yeni, parlaq ideyalarınız var. Heç kömək ummadığınız insanlar planlarınızı həyata keçirməkdə sizə kömək edirlər.



**Dolça** - Sizin nikbinliyiniz əla zireh və əvəzolunmaz silahınızdır. Onun köməyilə istənilən maneəni dəf edə bilərsiniz. Bu gün nəinki işgüzar, hətta, demək olar ki, döyüşkən ruha köklənmisiniz.



**Balıqlar** - Səhər heç də xeyirə açılmır. Əhvalınızı yaxşı adlandırmaq olmaz, yaxınlarınız da heç istəmədən lap odun üzərinə yağ tökürlər. Qəfil xərclər gözlənilir. Pullardan əl çəkmək xoşunuza gəlməyəcək.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Yaşıl çay insan ömrünü uzadır



**Çin Tibb Elmləri Akademiyasının alimləri yaşıl çayın insan sağlamlığına müsbət təsir etdiyini bildiriblər.**

"AZƏRTAC" bildirir ki, çinli alimlər 100 min insan arasında monitorinq aparaq, yaşıl çay istifadəçilərinin böyü əksəriyyətinin infarkt, xərçəng və iflic riskindən uzaq olduqlarını müəyyənləşdiriblər. Alimlərin 7 illik müşahidələri nəticəsində məlum olub ki, yaşıl çaydan mütəmadi istifadə edən şəxslər digərlərindən daha sağlam və uzunömürlüdürlər. Çin alimi Donqfenq Gu bildirib ki, yaşıl çayın kişilərə müsbət təsiri qadınlarla müqayisədə daha çoxdur. O, qeyd edib ki, yaşıl çay ürək-damar sistemində yarana biləcək problemlərin qarşısını alır.

*Hazırladı: Ramil QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.